T.C. KÜLTÜR VE TURİZM BAKANLIĞI

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ



# QARABAĞ ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNƏ



"Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan

İlham Əliyev

84 (5Aze) + 63.3 (5Aze) 622, 8
Q 24

# Karabağ Zaferi ve Karabağ Şehitleri Şiir Yarışması

Ermenistan'ın 27 Eylül 2020 sabahı Terter Rayonu ve Füzuli Rayonu'nda sivil yerleşim yerlerine yaptığı saldırıya Azerbaycan ordusunun karşılık vermesi sonucu başlayan ve 44 gün süren savaş, Azerbaycan Devleti'nin zaferiyle sonuçlanmış ve yaklaşık 30 yıldır işgal altında bulunan Karabağ azat edilmiştir. Bu şanlı zafer sadece Azerbaycan'da değil, başta Türkiye olmak üzere tüm Türk dünyasında büyük bir sevinçle karşılanmıştır. Karabağ Zaferi kolay elde edilmeyip 2907 taze fidanın vatan topraklarına can suyu olmasıyla kazanılmıştır. İsimlerinin yaşatılması ve bu destanın yazılarak sonraki nesillere aktarılması, eli kalem tutan herkesin üzerine bir tarihi borçtur. Nasıl ki " Çanakkale Zaferi" ni Mehmet Akif Ersoy "Çanakkale Şehitleri"ne şiiriyle ölümsüzleştirdiyse, "Karabağ Zaferi" ve "Karabağ Şehitleri" de böyle ölümsüzleştirilmeliydi. Bu fikirden yola çıkılarak milli mücadele ruhunu yaşatan, hissettiren şiirlerin yazılması amacıyla Bakü Türk Eğitim Kurumları'nın öncülüğünde TİKA, Azerbaycan Cumhuriyeti Eğitim Bakanlığı, Azerbaycan Yazarlar Birliği'nin destekleriyle 20 Ocak 2021 tarihinde "Karabağ Zaferi ve Karabağ Şehitleri"ne adlı bir şiir yarışması düzenlenmiş ve bu şerefli görev, tüm Azerbaycan sınırları içresinden yarışmaya katılan 655 ortaöğretim öğrencisinin yazdıkları şiirlerle amacına ulaşmıştır.

Azerbaycan Tahsil Nazırlığı temsilcileri, Bakü Türk Anadolu Lisesi, Türkiye Diyanet Vakfı Bakü Türk Lisesi, TDAV Bakü Atatürk Lisesi Türk Dili ve Edebiyatı / Azerbaycan Dili ve Edebiyatı Öğretmenleri, Azerbaycan Yazarlar Birliği Üyeleri, Azerbaycanlı değerli şair ve publisistlerden oluşan jüri heyetinin seçimleri doğrultusunda yarışmaya katılan ilk 50 şiir belirlenmiş ve elinizdeki kitap böylece oluşturulmuştur.

"Karabağ'da şehit olan 2907 vatan evladının ve gazilerin anısına..."

Bakü-2021





# ÖNSÖZ

Yirminci asrın başlarında Orta Asya-Kafkasya Türklerinin Sovyet egemenliğine girmesiyle ve dağılan Osmanlı Devleti'nin yerine Anadolu Türklerinin kurduğu Türkiye Cumhuriyeti dışında yeryüzünde bağımsız Türk devleti kalmadı.

90'lı yılların başında dağılan Sovyetler Birliği ile birlikte Türk Cumhuriyetleri bağımsızlığını elde ederken yine bedeller ödüyordu, kadim sınırlarına ulaşamıyordu. Azerbaycan 91 bağımsızlığı ile ağır bedellerle bağımsızlığını ilan ederken, kadim toprağı Karabağ'ı başka devletlerin desteğini alan Ermeniler Karabağ'ı işgal ediyor, binlerce Azerbaycanlıyı bu topraklarda kan ve gözyaşı içerisinde saf dışı ediyordu.

Bu 30 yıllık bağımsızlık sürecinde Azerbaycan bir yandan küllerinden yeniden doğarken, diğer yandan Hocalı'da uğradıkları soykırımı ve Karabağ'ı unutturmamak adına ders kitaplarına yazdırdı, okuttu neslini bilinçlendirdi. Azerbaycan üniversiteleri, bilimler akademisi enstitüleri sempozyum, kongre gibi uluslararası bilimsel faaliyetlerle ve yaptıkları bilimsel neşriyatla Rusya dahil bütün dünyaya haklı davalarını unutturmadılar, anlattılar, benimsettiler.

Bu asrın başında bağımsızlığına erişen Anadolu Türkleri ürettikleri değer, tutum, bilim, yerli ve milli teknolojileri ile soydaşlarına destek verecek arkasında duracak birikime ulaştılar, insan kaynağı ve liderler yetiştirdiler.

Bu birikim 2020 yılında Karabağ Zaferini müjdelerken bu devrin ortaöğretim öğrencileri de tanığı oldular. Karabağ zaferine tanıklık eden 2020 ortaöğretim öğrencileri, Türk tarihinin son asrın en şanslı neslidir dense yeridir. Biz Türkler için tarih yapan ama yazmayan millet derler. Zaferlerini, acılarını destanlara şiirlere konu etmiş nesilden nesile aktarabilmiştir.

1993 yılından beri Bakü'de Türk dünyasının acılarını, zaferlerini, gelişimini ilmek ilmek işleyen, yaşayan, yaşatan Bakü Türk Eğitim Kurumlarının etkili organizasyonu ile tüm Azerbaycan coğrafyasında Karabağ zaferini yaşayan lise öğrencilerinin gözüyle şiirleştirerek geleceğe taşımıştır.

Bu çalışmada çok emek sarf eden okullarımızın yönetici, öğretmen ve diğer çalışanlarına tarihe düşürdükleri bu anlamlı çalışmadan dolayı çok teşekkür eder, takdirlerimi sunarım.

Yarışmanın ödül törenini Büyükelçiliğimiz içinde görkemli bir törenle, bizzat hamiliğini üstlenerek yaptığı ev sahipliğinden dolayı Büyükelçimiz Doç.Dr. sayın Cahit Bağcı'ya şükranlarımızı sunarız.

Dr. Nihat BÜYÜKBAŞ

Bakü Eğitim Müşaviri

QAF
F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121495

Vatan bir milletin, bir ulusun yurdu, en kutsal değerlerindendir. Tarihin birçok dönemlerinde vatan uğruna dökülen kanlar bunun en ulvi değerlerden birisi olduğunun kanıtıdır. Özellikle vatan, millet, bayrak sevgisini en üst seviyede yaşayan biz Türkler için Vatan kelimesi sadece bir sözden ibaret değildir. Vatan uğruna nice savaşlar yapılmış, nice canlar bu uğurda feda olmuştur. Şairin dediği gibi; "Bayrakları bayrak yapan üstündeki kandır, Toprak eğer uğrunda ölen varsa vatandır".

Kardeş Azerbaycan da 20. yüzyılın başlarından itibaren bağımsızlık uğruna, vatan, millet ve istiklal uğruna birçok vatan evladını kurban vermiştir. 90'lı yılların başlarında başlayan bağımsızlık mücadelesinde, istiklal ve vatanın birliği uğruna nice vatan evlatları şehit düşmüştür. Bağımsızlığın ilk yıllarında coğrafyada yaşanan olumsuzluklar, bir Türk devleti olarak kardeş Azerbaycan'a uygulanan haksız tutum ve baskı topraklarının bir kısmının işgaliyle neticelendi. O günden geçtiğimiz yıla kadar Kardeş Azerbaycan halkı topraklarının işgalden kurtulması, zorla yurt yuvalarından göç eden kardeşlerimiz yurtlarına dönme aşkı ile yanıp tutuştu.

Bu özlem ve hasret geçtiğimiz yıl yaşanan ve Azerbaycan halkının birlik ve beraberlik, vatan evlatlarının kahramanlık sergilediği 44 günlük Vatan Savaşıyla sona erdi. 2907 vatan evladının canı pahasına kazanılan bu zafer Azerbaycan'da olduğu gibi Türkiye'de, bütün Türk dünyasında, hakkın savunulduğu bütün coğrafyalarda büyük sevinçle karşılandı. 30 yıla yakın süredir düşman işgalinde bulunan Şuşa'da, Füzuli'de, Cebrayıl'da, Zengilan'da, Gubadlı'da, Ağdam'da, Laçın'da üç renkli şanlı Azerbaycan bayrağı bir daha dalgalandı. Bu zaferi canlarını vatan için feda eden şehitlerimize, kahraman gazilerimize borçluyuz.

İnsanlığın en yüce zirvesine ulaşan şehitlerimizin hatırasını yaşatmak her birimizin en ulvi görevidir.

Bu amaçla vatanı için canlarından geçen şehitlerimizi ve bu kutlu zaferi ölümsüzleştirmek, gelecek nesillere ulaştırmak amacıyla bu tarihi zafere tanıklık eden Azerbaycan'daki ortaokul öğrencileri kardeşlerimiz arasında şehitlerimizi konu alan bir şiir yarışması düzenledik.

TİKA'nın destekleriyle Bakü Türk Anadolu Lisemizin organizasyonuyla gerçekleştirdiğimiz projeye yoğun ilgiden dolayı bütün katılımcılarımıza teşekkür ediyorum.

Ortak tarihimizin her kademesinde, Kurtuluş Savaşı'nda, Çanakkale Savaşı'nda, 20 Yanvar'da, Hocalı'da, 15 Temmuz'da, Karabağ Savaşı'nda ve vatanın, millet, bayrak ve istiklal için canlarını feda eden aziz şehitlerimizi bir kez daha minnet ve saygıyla anıyorum.

Teoman Tiryaki
Türk İşbirliği ve Koordinasyon Ajansı – TİKA
Bakü Program Koordinatörü





## MÜNDƏRİCAT

Qarabağ Azərbaycandır! .......... 7
Qarabağla söhbət .......... 11
Böyük qayıdışın şanlı zəfəri .......... 15
Qarabağ şəhidləri .......... 21
Qarabağ zəfəri .......... 24
Xudayar .......... 28
Haqq zəfərim .......... 30
Qarabağ şəhidləri .......... 33
Bir millətin nağılı .......... 36
Şəhid kimdi? .......... 39
Şəhidlər! .......... 41
Şair, sorma vətən nədən yaxşıdır?! .......... 44
Şəhid atanin şəhid oğlu .......... 53
Azərbaycan şəhidləri .......... 59
Şərəfli zəfər! .......... 62
Haydı irəli! .......... 64
İgidlər oylağı Azərbaycanim! .......... 66
Darıxmışam Qarabağ .......... 68
Oğul həsrəti .......... 71
Şəhid .......... 74
Vətən uğrunda .......... 77
Qarabağ zəfəri .......... 80
Qarabağ zəfəri .......... 82
Can Qarabağ .......... 89
Qarabağın zəfər səsi .......... 92

Qarabağım ....... 94
Tarixi zəfər ....... 97
Şəhidimin vəsiyyəti ....... 99
Vətən uğrunda ....... 102
Tarix yazan şəhidim ....... 105
Qardaşlıq zəfəri ....... 107
Destan ....... 110
Ata vəsiyyəti ....... 114
Şəhidlər ....... 116
Mən səni aldım, sən məni, torpaq! ....... 118
Şəhidlər ....... 121
Zəfər yolu ....... 123
Şanlı zəfərimiz ....... 125
Mübarizlər ....... 128
Xudayar oxuyan təsnif ....... 130
Şanlı tarix ....... 132
Şehitlik zirvesi ....... 135
Şəhid ömrü ....... 139
Yaxşıdır ....... 141
Ana torpaq, qucağına gəlirəm ....... 144
Şəhidin qızıyam ....... 146
Qarabağ azad oldu, daim azad qalacaq! ....... 148
Gözəl Şuşa ....... 150
Şəhidim ....... 152
Azərbaycan Türkiyə ....... 154





# Qarabağ Azərbaycandır!

Qarabağ! - Burdadır türkün əcdadı,
Həmişə dillərdə dastandır adı.
Ürəyim bircə gün onsuz olmadı,
Qəlbimə məlhəmdir, həbdir, dərmandır,
Qiymətli gövhərdir, ləldir, mərcandır,
Qarabağ əzəldən Azərbaycandır.

Haqqı tapdadılar, etdilər günah,
Öz doğma yurdumda qaçqın oldum, ah!..
Az qala otuz il gözlədim, Allah!
Gözümə yuxu da getmir haçandır,
Bildim bu zəfərin son həlli qandır,
Qarabağ əzəldən Azərbaycandır.

Qəlpədən,güllədən qorxmayan əsgər
Hər döyüş öncəsi oldu səfərbər.
Qırx dörd gün ərzində qazandı zəfər;
Düşmənin əhvalı lap pərişandır,
Bu Ağdam,Füzuli,bu Zəngilandır,
Qarabağ əzəldən Azərbaycandır.

"Deyirlər bülbülə çəmən yaxşıdır,
İnsana laləzar vətən yaxşıdır".
"Xudayar təsnifi" yaman yaxşıdır;
Avazı şirindir,baldır,ayrandır,
O da qarabağlı,yek oxuyandır;
Qarabağ əzəldən Azərbaycandır.

General əsgərdən qabaqda getdi,
Ordunu ardınca səfərbər etdi.
Daha işğal ötdü,əsarət bitdi;
Yurduma qayıdış əsas plandır,
Bu torpaq əbədi bizdə qalandır;
Qarabağ əzəldən Azərbaycandır.

Tarixin təkəri geri dönərmiş,
Dəmir yumruğumuz gücmüş,hünərmiş.
Hər igid əsgərin özü bir nərmiş,
Göstərdi döyüşdə, qalib zamandır,
Əcdadım doğrudan xan oğlu,xandır,
Qarabağ əzəldən Azərbaycandır.

Səkkizi noyabr - Zəfər günüdür,
Düşmən üzərinə səfər günüdür.
İgid əsgərimin hünər günüdür,
Şuşa Hadrut ilə lap yanbayandır,
Türk ilə azəri bütöv bir candır,
Qarabağ əzəldən Azərbaycandır.

Daha ağlamayır analar indi,
Göydə qatarlanır sonalar indi.
Şuşada türk oğlu can alar indi,
Onun qarşısında durmaq yamandır,
Kim deyir Şuşanın başı dumandır?
Qarabağ əzəldən Azərbaycandır.





Sahibsiz qalmışdı Cıdır düzü də,
O Xarı bülbülün güldü üzü də.
Tanrı sevindirdi bu gün bizi də,
Bu Ərimgəldidir,bu Bağrıqandır,
Düşmənin qisməti ahu-fəğandır,
Qarabağ əzəldən Azərbaycandır.

Çaldıq bu savaşda tarixi zəfər,
Xalqımız,ordumuz oldu səfərbər.
Yumruqlar düşməni etdi dərbədər,
Cəbrayıl,Qubadlı azad məkandır,
Yenə Kəlbəcərə Laçın həyandır,
Qarabağ əzəldən Azərbaycandır.

Daim fəxr etmişəm türk oğlu,türkəm,
Andıma sadiqəm,dostluğa bərkəm.
Yurduma qəsd edən yağıya görkəm,
Sanmayın bu sözüm mifdir,yalandır,
Biz gəldi-gedərik,şeir qalandır,
Qarabağ əzəldən Azərbaycandır!..

Araz VELİŞOV
*1-ci yer.*







# Qarabağla söhbət

Qarabağım,qara bəxtim oyandı
Dövran döndü,zaman bizim zamandı
Elim Azər, köküm-soyum Turandı
Səni bizə qovuşdurdu oğullar,
Xoş sonluqla bitər bütün nağıllar

Neçə ildir dağlar bizə küs idi.
Yağı gəldi,yollar-izlər kəsildi
Türk olanın qanı safdı əsildi
Qoymaz qala torpaq düşmən əlində
Min igid var hər obamda,elimdə

Torpağıma qatdı qanın ərənlər
Vətən olsun,lil olmasın deyənlər
Mübariztək oğlu olan xalq bilər
Üç gün,beş gün ayrılsaqda bizimdi
Həsrət yurdum,sil gözünü gül indi

Təki torpaq vətən olsun,biz ölək
Sən yenidən diril deyə can verək
Bir şəhidə dua edər min mələk
Azadlığın rəngi qanın rəngidi
At qaranı,gey al hırqa,gəl indi

Canlar alıb torpaq verdi o bazar
Yumruq olsa,öz yazısın xalq yazar
Eşidirik,gəlir səsin,Xudayar
Hər kişiyə yaxşıdı öz vətəni
Uçmaq üçün bülbülə öz çəməni

Hər şəhidin hekayəsi,dastanı
44 günə qanlı yazdız,fərmanı
100 il keçsə mat qoyacaq dünyanı
Şəhadətli şərbət kimi içənlər
Torpaq üçün öz haqqından keçənlər

Generalım "marş irəli" yerinə
"Dalımca gəl" əmri verdi əsgərə
Bir Poladdı bu döyüşdə bil hərə
Qisas qalsın qiyamətə qoymadı
Qoşa yad et Cəbrayılla Poladı.

Şəhidini dağtək alıb çiynəni
Yeriyəndə əsgər düşmən üstünə
Dünya çaşıb qaldı Şuşa sirrinə
Bir sirr vardı,ancaq vətən sevgisi
Türk oğluyçun yoxdu onun ölçüsü

Neçə qanlar axdı sənin yolunda
Dəmir buxov qalammardı qolunda
Anaların nənələrin dalında
Ayaqyalın,qaçqın gedən tifillər
Tank üstündə sənə geri döndülər

Gör neçə il ayrı düşdün elindən
Sənin acın keçir mənim evimdən
Qazi atam yapışanda əlimdən,
Büdürləyib çəliyindən tutardı,
Köks ötürüb uzaqlara baxardı.





Hiddətimdən gözüm yaşla dolanda
Arzularım yuxuda çin olanda
Xarı bülbül əsir eldə qalanda
Qəzəblənib xəyal atın minərdim
Qisas alıb yenə evə dönərdim

Qisasımı aldı qazim,şəhidim
44 günə mən 44 il böyüdüm
Oğurlanmış uşaqlıqdı ödülüm
Gül yerinə göydən yağdı bombalar
Öksüz qaldı oyuncaqlar,çantalar

Qarabağım,qara yazın silindi
Düşmən,Türkün gücün anla,bil indi
Şuşa,Laçın,Kəlbəcər öz elimdi
Bir gün yollar xankəndinə aparar
Qazi qızı Lalə,arzun çin olar.

Lale NEMET
*2-ci yer.*









# Böyük qayıdışın şanlı zəfəri

Yağılar göz dikib doğma yurduma,
Dənizdən-dənizə dövlət istəyir.
Qıcardıb dişini şanlı orduma,
Elə lovğalanıb qana-qan deyir.

Düz otuz ildir ki, ana torpağım,
Qalıbdır düşmənin tapdağı altda .
Murovun, Qoşqarın neçə oylağın,
Dayanıb vüqarla o Salvartı da.

Elimin, obamın mərd igidləri,
Düşmənin əlindən zəncir çeynəyir.
Gözümüz gördükcə namərdlikləri,
Damarda qan donur, ürək göynəyir.

Sayı bilinməyən neçə cinayət,
Baş alıb hey gedir illərdən bəri.
Girdabda qalıbdır sanki ədalət,
Dünya kordur, görmür vəhşilikləri !

Gördük bu dünyada böyük ölkələr,
"Zavallı hayesin" halına yanır.
Silahlarla dolu nə qədər yüklər,
Bu mənfur ölkəyə gizli yollanır.

Bununla özünü yenilməz sayır,
Özündən çox deyən hayes "dığalar".
Türk oğlu, haqqı nahaqdan ayır,
Yolun azan, sizdən dərsini alar.

Ataşi pozurlar hər gündüz, gecə,
Qanuna alçaqlar məhəl qoymayır.
Uşağı ,qocanı almayıb vecə,
Tökülən qanlardan gözü doymayır.

Düşəndə yadıma Xocalı adı,
Ürək dilə gəlir, sinəm inləyir.
Göylərə yüksələn ərşi-fəryadı,
Bu dünya sakitcə, səssiz dinləyir.

Atılır güllədən qoca, uşağa,
Yüzlərlə insanlar yerə sərilir.
Sərilib meyidlər yaxın, uzağa,
Belə mənzərədən əsəb gərilir.

Amansız borandan , ayaz -şaxtadan,
Qupquru bədənlər qaxaca dönüb.
Ürək nalə çəkir, deyir astadan,
"Bu yerdə gözümdə həyat da sönüb ".

Yuxuyamı gedib oğuz elləri ?
Yağı torpağımda meydan sulayır.
Qanıma bulaşan murdar əlləri,
Tülkü tək ləzzətlə sorub-yalayır!

Çapıb taladıqca kənddən, şəhərdən,
Ağzında dad qalır, dişində şirə.
Amansız zərbələr enəndə birdən,
Düşmənin canına qorxu düşəcək!





F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121495

Qorxaqsan tülküdən ey alçaq yağı,
Döyüş başlayanda qaçırsan yaman.
Xalqın unutmayacaq çəkdiyin dağı,
Özün öz ölümünə veribsən fərman !

Çevrilsin başına düşmənin taxtı,
Vətəndə qalmasın onlardan bir iz !
Amansız qisasın çatıbdı vaxtı,
Hazırdır döyüşə yüz Mübariz !!

Aprel savaşında dərsin alanda,
Gördünüz xalqımın əzəmətini !
Hünər meydanında zəfər çalanda,
Vətən torpağına məhəbbətini !

Gəlib yad torpağa it kimi öldün,
Leşinə ölkən də yiyə durmadı.
Qarğaya, quzğuna ancaq yem oldun,
Uzağın, yaxının yada salmadı.

Zərbələr başına amansız endi,
Taleyin bu dəfə tərsinə çöndü.
Toplar nərildəyib dindi nə dindi,
"Yenilməz ordunuz" tülküyə döndü !

"İgid " əsgərlərin fərari olub,
Türkün qarşısında dizləri çökdü.
Baş nazirin yaman qaralıb, dolub,
"Təslim aktı " yoğun boynunu bükdü !

Ömürlük dərsini çox sərt aldılar,
Binamus, şərəfsiz alçaq yağılar .
Dünya qarşısında rəzil oldular,
Türkə nökər olan dilənçi haylar!

Döyüşü şərəflə vuraraq başa,
Bizə qismət oldu "Zəfər sonluğu".
Mənfurlar bizimlə girsə savaşa,
Görəcək başında "Dəmir yumruğu".

Alıram müjdəni əsən küləkdən ,
Alınır yadlardan ana torpağım .
Sevinib deyirəm mən də ürəkdən ,
Azadsan ! Azadsan ! Sən Qarabağım !

Şuşada ucalan üçrəngli bayraq,
Xalqımın ədalət, haqq savaşıdır.
Yayılsın aləmə burdan min soraq,
"Bütün şəhidlərin o başdadır" !

Baxanda Murova ,o Dəlidağa ,
Uzaqdan duyulur isti nəfəsi.
Yayılır Şuşadan yaxın uzağa,
Müqəddəs Quranın o azan səsi!

Bu ağır sınaqdan zəfərlə çıxdın,
Əyilməz, yenilməz -Azərbaycanım !
Hər şəhid balanı bağrına sıxdın,
Heç zaman enməyən şanlı bayrağım.





Sevincim sel olub, qoy aşıb dolsun,
Zəfərlə səslənən hər arzu, kamım !
Vətənin çörəyi halalın olsun,
Doğma prezidentim - əziz İlhamım !!!

Ucaldır səsini yüksək kürsüdən,
Türkün böyük oğlu Rəcəb Ərdoğan !
Haqqına deyilən hər sərt sözündən,
Azəri türkünə duyulub həyan!

Sən türkə arxalan, türk oğlu mərddi,
Namus, qeyrət türkün bil qanındadır!
Dosta mehribandı, düşmənə sərtdi,
Haqqın savaşında, o yanındadır!

Türklə kimlər etsə, torpaq davası,
Heç kəsə verməyə, bir daşı yoxdur!
Dinlə sözlərimi ey türk balası,
Türkün türkdən başqa qardaşı yoxdur!

Şəbnəm Osmanova
*3-cü yer.*







# Qarabağ şəhidləri

Torpağa su qatsan əgər
Palçıq ilə tən olacaq
Şəhid qanı hopar olsa
O zaman Vətən olacaq.

Asta yeri bu torpaqda
Burda Şəhid canlar yatır
Torpağı Vətən eyləyən
Qəhrəman oğlanlar yatır

Qəbri üstə sinədaşı
Başdaşının rəngi qara
Amma ordan,
O rəsmdən üzüağla
boylanırlar bu dünyaya.

Çünki onlar
Otuz ildir əsarətdə inildəyən
torpaqları alanlardır.
Bu ədalət davamızda
Vətən zəfər çalsın deyə
Rəşadətlə vuruşaraq
Şəhadətin zirvəsində
Yaddaşlarda qalanlardır.

Qəlblərində
Ölçülərə sığışmayan vətən eşqi
Yaddaşında
Bir milyonluq qaçqınımın haqq davası,

Xocalının müsibəti,
Taleləri param-parça insanımın
qəlb yarası
olanlardır.

Ey Şəhidim!
Bütövləşən vətənimin hər açılan xoş sabahı
nurunuzla işıqlanır.
Bu xalq daim
"Ər ogullar qəddimizi dikəltdilər" söyləyərək
sizi anır.
Məlhəm olduz millətimin sızıldayan yarasına,
Düz söz imiş - ogul düşmən çəpəridir anasına.
Qalxıb gözəl Qarabagın Şuşa adlı zirvəsinə
Əllərimi geniş açıb haykırıram,
Ellər səs verir səsimə:
Siz ey sal qaya kimi Vətənə sipər olan ,
Mənfur, namərd düşmənə döyüşdə qan udduran,
Əsgərimin gücünü dünyaya tanıtdıran,
Sabahlara nur saçan Günəşlə tən Şəhidlər!
Qanı Vətən, canı Vətən, ruhu Vətən Şəhidlər!

Nicat Abdullayev
*4-cü yer.*







# Qarabağ zəfəri

Hər yan atəş səsi, haray, qışqırıq,
Gecənin bağrını sökür silahlar.
Ayağı çəkməsiz, başı da açıq,
Ölümün əlindən qaçır insanlar.

Min bir əzab ilə, işgəncə ilə
Qovulur adamlar yurd-yuvasından.
Zor ilə qovulur kök saldıqları
Əzəli, əbədi torpaqlarından.

Kimi əsir düşür, kimi can verir,
Düşmənə xoş gəlir ana fəryadı.
Körpə ağlaması, qoca naləsi
Sanki ruhlandırır vəhşi cəlladı.

Burda açılmağa tələsmir səhər.
Utanır gecənin mənzərəsindən.
Viranə obalar, qanlı cəsədlər
Dağlayır qəlbi qəm pəncərəsindən.

Budur Qarabağın işğal səhnəsi,
Xalqa gözlənilməz oldu bu zərbə.
Yenicə müstəqil olmuşdu Vətən,
Qoruna bilməz ki, doğulan körpə.

Sonra danışıqlar masası gəldi,
Danışıb-danışıb çözüm olmadı.





Dünyadan ədalət gözləyənədək
Yara göv elədi, səbr qalmadı.
Amma öz gücünü toplamaq üçün
Xalqım mətanətlə dayandı,durdu.
Çıxıb əsarətin zəncirlərindən
Müstəqil, möhtəşəm bir dövlət qurdu

Ana qucağında qaçan körpələr
Böyüdü, hünərvər bir əsgər oldu.
Qüdrətli Ordumuz və müdrik rəhbər,
Bir də xalq birləşib səfərbər oldu.

Ali Baş Komandan əmrini verdi: -
"Yetdi torpağımda düşmən fitnəsi
Onların növbəti təxribatına
Cəbhə boyu əks hücum həmləsi"!

Bu müqəddəs savaş, bu haqq davası,
Bir də ilahinin ədaləti var.
İti qovan kimi qovdu yağını
O aslan ürəkli igid oğullar.

Dəmir yumruq ilə əzib düşməni
Cahana yeni hərb tarixi yazdı.
Qurtarıb işğaldan doğma Vətəni,
Şərə əbədilik bir quyu qazdı.

İndi Qarabağda yeni bir bahar,
Təbiət sevinir bu növrağına.
Günəş də gur saçır şəfəqlərini
Böyük Qayıdışın sabahlarına.

Mənəvi dəstəkçün var ol,Türkiyəm,
Xalqımın qəlbində ayrıdır yerin.
Adını hörmətlə salacaq yada,
Haqqın yanındakı bütün ölkələrin.

Mülayim Hümbətova
*5-ci yer.*







# Xudayar

Şəhadət şərbətini içib Vətənçün
Kövrəltdin hər şəhər, kəndi.Xudayar!
Yazmaq istədiyim bax bu şeirimin
Ağlayır, misrası bəndi, Xudayar!

Döyüş meydanında silah əlində,
Nurlu simasında, şirin dilində
Vətən nağməsini Vətən çölündə
Oxuyub dilləndi, dindi Xudayar.

Daşıdı qəlbində vətən dərdini,
Azad etmək üçün seçdi ordunu.
Keçirtdi xəyaldan gözəl yurdunu,
Vətənçün dastana döndü Xudayar.

Qoy ruhun şad olsun, son kəz gördüyün,
Çiçəyin qoxlayıb, gülün dərdiyin,
Uğrunda canını qurban verdiyin
Qarabağ azaddır indi, Xudayar!
Bu torpaq azaddır indi, Xudayar!

Məhəmməd Aslanov
*6-cı yer.*







# Haqq zəfərim

Mən ölümsüz bir millətin
ölümsüz əsgəriyəm.
Parça-parça oğurlanmış
qədim bir yurdun səsiyəm.

Qoca dünya, eşit məni!
Bu gedişim başqa gediş...
Bu döyüşüm başqa döyüş...
Yolçuluğum iman dolu.
VƏTƏN deyib tapındığım-
-Haqq savaşı ,Zəfər yolu!
Əlimdəki parça deyil,
Millətimin min illərin yaddaşından
Qətrə-qətrə damarıma düşən oddur.
Yolum o yurda ki, mənim
Orda qoca babalarım qar içində ,qan içində şəhid olub...

Orda mənim körpə-körpə fidanlarım
Al qanına qəltan olub...
Orda axan çaylardadır balasını özü ilə suda boğan
Anaların nakam ruhu...
Bacıların göyə çıxan nalələri...
Uçurumlar - sine dağım
Xarabaya dönən yerlər
Çalın -çarpaz köz yaramdı, göz yaramdı...
Dedim geri qayıtmasam, mənə hava, su haramdır...
Tarixdəki üz qaramdı-Xocalı da ,Daşaltı da
Şusa ,Laçın, Zəngilan da gözü yolda ...





Qoca dünya , eşit məni !
Qartal kimi dağlarımın zirvəsini fəth eledim,geri gəldim
Laçınımın göz yaşların silib döndüm...
Bilgə xaqan, Mete xaqan
Bayandur xan. Ey Qazan xan
Mən Babəkin ,Koroğlunun ər oğluyam
Nəfəsinin hökmü belə düşmənlərə qan udduran
Xudayarı , Xəyalıyam,Poladıyam
Mən Türk yurdu,Türk oğluyam.
Qoca dünya tanı məni !Yolum haqdan keçır mənim.
Haqqım olanı aldım,
Mən HAQQ ZƏFƏRİ çaldım !...

Nurtac Ağazadə
*7-ci yer.*







# Qarabağ şəhidləri

Sən mənim qibləgahım, sən mənim and yerimsən,
Sən mənim səcdəgahım, sən mənim pir yerimsən,
Sən mənim əlçatmazım, müqəddəs bir zirvəmsən,
Vətən üçün can verən, Qarabağ Şəhidləri.

Tarix Sizi yazmadı, Siz tarixi yazdınız,
Torpağa göz dikənin məzarını qazdınız,
Ölümdən qorxmadınız, düz gözünə baxdınız,
Torpaq üçün qan verən, Qarabağ Şəhidləri.
Vətən "qalx oğul"- dedi, Vətənə can dediniz,
İnləyən torpaqları dardan azad etdiniz,
"Vətən sağ olsun" deyib, yurda qurban getdiniz,
Adı dillərdə dastan , Qarabağ Şəhidləri.

Azaddır vətənimin bağatı da, bağı da,
Azatdır vətənimin torpağıda da, dağı da,
Qələbə sevincini yaşatdız xalqımıza,
Qəlbi dağlardan böyük, Qarabağ Şəhidləri.

Bayrağı yüksəltdiniz ucadan-ucalara,
Sevinci yaşatdınız uşaqdan-qocalara,
Qəhrəmanlıq yazdınız sətirdən-hecalara,
İgidlik salnaməsi, Qarabağ Şəhidləri.

Düşmənin gözü qorxdu çəkdiyin nərələrdən,
Pərən-pərən düşdülər vurduğun zərbələrdən,
Ordumuz vəcdə gəldi Xudayar nağməsindən,
Qartal təki şığayan, Qarabağ Şəhidləri.

Qisasını aldınız Şuşanın, Xocalının,
Füzulinin, Ağdamın, Qubadlı-Zəngilanın,
Qartalı qıy vuracaq Kəlbəcərin, Laçının,
Yarama məlhəm oldu , Qarabağ Şəhidləri.

Yurdun qeyrət rəmzidir Xudayar ,Elzaminlər,
Rəşad ,Hafiz, Şəhriyar neçə-neçə igidlər,
Hələ doğulacaqdır, Poladlar, Mübarizlər,
Gənclərə örnək oldu, Qarabağ Şəhidləri.

Azad oldu Qarabağ, tam oldu torpağımız,
Dalğalanır qürurla üçrəngli bayrağımız,
Parlayacaq hər zaman Günəşimiz , Ayımız,
Əbədiyyət günəşi, Qarabağ Şəhidləri.

Şəhidlər unudulmur, yaddan çıxmaz heç zaman,
Şəhidlər anılıbdır, anılacaq hər zaman,
Şəhidlər ölməyibdir, ölməyəcək heç zaman,
Ürəklərdə yaşayır, Qarabağ Şəhidləri

Zülfiyyə Şükürzadə
*8-ci yer.*







# Bir millətin nağılı

Açın bütün evlərin pəncərəsin, qapısın.
Eşitsinlər.
Ürəyimdə
bir yük kimi daşıdığım,
ağrı kimi, zülm kimi yaşadığım
nağılım var.
Danışım.
Bir millətin nağılı.
Qürurlu və ağrılı.
Ya toplayın bir salona
dünyadakı insanların hamısın.
Bacarmasaz, meşələrə hay salın.
Dənizlərə, dağlara, çaylara xəbər verin.
Təki çatsın nağılım
qulağına hər yerin...
Danışım?
Bacararam?
Bəlkə, bu il bacardım..
Necə...hardan başlayım..?
Anasının
əlləriylə boğduğu
o körpədən danışım?
Yoxsa ki gözəlliyi
anasının dırnağıyla pozulan
o qız kimi danışım?
Qayğıya möhtac ikən
Şaxtadan daşa dönmüş,
baş dərisi soyulmuş,





saqqalında qan donan
o qocanın əzabından danışım?
Körpəsi gözü önündə
gülləyə qurban olan,
canından çox sevdiyi,
başına tac bildiyi,
sevdiyinin -yarının
nəşini saatlarla
kürəyində daşıyan
o gənc kimi danışım?
Bəlkə, o soyuq gecədən,
qan donduran şaxtadan,
utancından gizlənib
heç çıxmayan
Günəşdən danışım..?
Yox...Bacarmıram...
Qoy hamıya
Hərarəti anaların
30 ildə selə dönmş
göz yaşını qurudan,
istisiylə ağrıları ovudan
bu GÜNƏŞdən danışım.
Dəmir Yumruğun sıxa-sıxa çıxardığı,
ŞƏHİDİMin yar olduğu
Bu Günəşdən..!

Fatma İsmayıllı
*9-cu yer.*







# Şəhid kimdi?

Salam olsun Şəhidin ruhunaki candı Şəhid
Bir fəxarət günəşi hikməti-ümmandı Şəhid

Salam olsun Ulutürk millətinin övladına
Canı qurban elədin can sənə qurbandı Şəhid

Analar oğlunu yad etdi qürur hissi ilə
Sənə xatir tökülən göz yaşı ehsandı Şəhid

Yaşadır doğmalığı Türkiyə Azərbaycan
Hər iki torpaq əzəldən sənə ünvandı Şəhid

Eyni millət 2 dövlət dedi öndərlərimiz
Bizi fəxr ilə qürurlandıran elandı Şəhid

Ehtiram mərtəbəsini fəth elədin əzminlə
Cümlə aləmdə mələklər sənə heyrandı Şəhid

Şəhidin ruhuna Allah özü qüdrət vermiş
Biz günahkarlara məhşər günü dərmandı Şəhid

O fədakarcasına sinə gərib mərmilərə
Sakini bağı behişt, sahibi imandı Şəhid

Çox şükür ki, sona yetdi 30 illik həsrət
Bizim azadlığımızçun muhim insandı Şəhid

Hər qarış torpağı qanla qorumağdır görəvin
Anamız, namusumuz Azərbaycandı Şəhid.

İbrahim Bakıxanov
*10-cu yer.*







# Şəhidlər!

Hər insana nəsib olmur Şəhidlik,
Bu adı canıyla aldı Şəhidlər!
Xalqım rahat yatsın,-deyə səngərdə
Səhərədək oyaq qaldı Şəhidlər!

Çevrilib aslana,döndülər dağa,
Verib canlarını can Qarabağa,
Qurban kəsdilər ana torpağa,
Ürəklərə belə doldu Şəhidlər!

Yağıların sinəsinə çökdülər,
Səngərin dağıdıb,səddin sökdülər,
Qisas,-deyib düşmən qanı tökdülər,
Xocalı öcünü aldı Şəhidlər!

Azalıbdır,tükənibdir sayları,
Məhv olublar,kəsiləcək soyları,
Miskin,qorxaq dığaları,hayları
Ölüm girdabına saldı Şəhidlər!

Cəsədləri ilə sədlər qurdular,
Sipər olub,sərhədlərdə durdular,
Yurda qanlarıyla möhür vurdular,
Tarix yazıb,tarix oldu Şəhidlər!

Haqqın dərgahında ucadır yeri,
"Quran" da verilib haqqı,dəyəri,
Türkün,türkçülüyün fəxri hər biri,
Göylərə ucalan yoldu Şəhidlər!

Novruz,sən də qələminə haray çək,
Qeyrət toxumu səp,qəhrəmanlıq ək,
Bu necə sevdadır,bu necə istək?
Milləti oyadıb əməlləriylə
Əbədi yuxuya daldı Şəhidlər!

Gülnur Məmmədova
*11-ci yer.*







# Şair, sorma vətən nədən yaxşıdır?!

Kainat çox nəhəngdir,
Ucu-bucağı yoxdur.
Qalaktika, ulduzlar,
Günəş sistemi çoxdur.
Bu sonsuz kainatda
səkkiz planet də var.
Yalnız Yer kürəsində
İnsan övladı yaşar.
Dağları, dənizləri,
Əvəz edər səhralar.
Bir yandan gün doğanda
O yanı zülmət qalar.
Nə gözəl məmləkətlər,
Diyarlar var dünyada.
Bəyaz qumlu sahillər,
Cənnətə bənzər ada.
Daimi buzlaqları,
Zirvələri görəndə
İlk baxışdan vurulur,
Heyrətə düşür bəndə.
Bu mavi planetdə
Mənim də öz yurdum var.
Çox böyük deyil, amma
Mənim könlümə yatar.
O mənim Vətənimdir,
Mənə tanrı payıdır.
Xəyalim hara getsə,
Yenə ona qayıdır.
Dağları uca deyil,





Everest, Pamir kimi.
İndi nədir, deyirsiz,
Mən onu sevməyimmi?
Çayları sulu deyil,
Konqo, Amazon qədər.
Yenə susuz çöllərə
Daima həyat verər.
Çin səddi boyda deyil,
Qalalarım var mənim.
Adı Robin Hud deyil,
Dəlilərim var mənim.
Əzizdir hər qarışı,
Mən onunam, o mənim.
Aləm cənnətə dönsə,
Əvəz etməz Vətəni.
Xəzərin duzlu suyu
Şərbət kimi şirindir.
Batabatı, Göygölü
Baykal qədər dərindir.
Aranın istisi də,
Yandırıb yaxmaz məni.
Seyrək şoran çölü də
Yaşıl donlu səməni.
Qobustanın boz daşı
Mənim tarix dastanım.
Bəs mən kimə söykənim,
Bəs mən kimə yaslanım?
Mən yurdumu sevirəm,
Səbəbsiz, bəhanəsiz.

Bəs siz mənim sevgimə
Nə üçün biganəsiz?
Bir də mənim yurdumun
Cənnət bir bağı vardır.
Bulaqları gur axar,
Dağların başı qardır.
Yağılar bəd danışdı,
Yurdumu viran etdi.
İnsanları dərbədər
Dünyadan köçdü getdi.
Düşmən anlamadı ki,
Onun deyil bu ocaq,
Nə ağac əkməyəcək,
Nə binə qurmayacaq.
Sevgisi yoxdur onun,
Otuna, yovşanına.
Ancaq çapıb talasın,
Qızılı gərək ona.
Sevgi dolu əllərdə
Hər qarışı zər olur.
Düşmən tapdağı altda
Torpaq da zəhər olur.
Sevgi, zəhmət doludur
Bu torpağın mayası.
Bütöv tarix danışar
Tək Xuraman qayası.
Sənin üçün bir daşdır
Divarlara hörərsən.
Mənimləsə dil açar,





Gəlib indi görərsən.
Xarı bülbül mənimdir,
Şeirimdə, muğamda.
Sənə orxideyadır
Solub gedər güldanda.
Gövhər ağa məscidi,
Bir həsrət hekayəsi.
"Aləm cənnətə dönsə"
Bayatısı, naləsi.
Bəs sənin üçün nədir?!
Donuz saxladın orda.
Niyə bunca xainsən,
Müxənnətsən bu yurda?
İşğal edəndən sonra
Hər yer boz çöllük oldu.
Yad ellərin həniri
Dəydi, təbiət soldu.
Ağdamın ağ günləri
Göy əskiyə büküldü.
Kərpic-kərpic tikmişdik,
Çalov-çalov söküldü.
Elə bildin ağasan,
Hesab soranın olmaz?
Bir gün qurduğun dünya
Öz başına yıxılmaz?
Silaha sarıldılar
Bu torpağın ərləri.
Həm qeyrətləri vardı,
həm də ki hünərləri.

Yalın əllə dırmaşdı
İgidlər qayalara,
Başlarına yağırdı
Güllə, mərmi, qumbara.
Şəhid qardaşlarını
Çiynində daşıdılar.
Dağlara söykəndilər,
Özləri daş oldular.
Düşmən dəhşətə gəldi,
Bu necə olur axı?
Yerə qoyub qaçırdı
Bütün topu, silahı.
Bu həmin uşaqlardı,
Qovmuşduz evlərindən.
Siz hardan biləydiniz,
Ordan başladı Vətən.
O oğullar böyüdü,
Tanklara süvar oldu.
Düşmən tir-tir titrədi
Ov oldu, şikar oldu.
Bir yumruqtək birləşdi,
Talış, ləzgi, tat, udin.
Heç tərəddüd etmədi
Rus, ingiloy, yəhudi.
Bəs sizdə necə oldu,
Bir gündə on min qaçdı.
Yalançı generallar
Ekranları dolaşdı.
Niyə başa düşmürsüz?





Niyə edirsiz inad?
Bura mənə Vətəndir,
Bura mənə istinad.
Torpaqdan ilham alır,
Üstündə gəzən əsgər.
Qollarına güc gəlməz,
Yabançı olsan əgər.
Nə çoxdur dünyada yer,
Vətən olmayacaqsa.
Babadan nəvəsinə
Məskən qalmayacaqsa.
Sizə hektar lazımdır
Donuz otarmaq üçün.
Misini, qızılını
Çapıb aparmaq üçün.
Daşını sökəsiniz,
Qırasız meşələri.
Mənimsə can suyumdur
Tərtər, Oxçu, Həkəri.
Qucaq açdıq qonağa
Evimizin başında.
Xankəndində, Şuşada
Ağdərədə, Laçında.
Qonaq yerin bərkitdi,
Saldı bizi çöllərə.
Bunu necə anladım
Sonrakı nəsillərə?
Necə deyim qəbirdən
Sümükləri çıxaran.

Xocalı qətliamı...
Bunu edərmi insan?
Niyə belə düşmənsiz
Bəs ana təbiətə?
Adam söz tapa bilmir,
Adam gəlir dəhşətə.
Bu torpağın üstündə
Hər kəs yaşar mehriban.
Bircə sizə dar oldu
Bu ocaq, bu xaniman.
Bir bayraq altındaca
Hamı verdi əl-ələ.
Düşmənin ürəyinə
Saldı azar, vəlvələ.
İçimizdə hər dindən,
Hər millətdən var idi.
Birisi talış idi,
Birisi avar idi.
Bu bizim sərvətimiz
Bizim dəyərimizdir.
Hər kəsi sevə bilmək-
Böyük hünərimizdir.
Yetər xəbis niyyətlər,
Bəsdir maşa oldunuz!
Siz ki nökər idiniz,
Bizdə paşa oldunuz.
Tövbə edin, qurtarın,
Məkrli planları,
Çox qırğına verdiniz.





Günahsız cavanları.
İnsanca yaşayalım
Gözəl vətənimizdə.
Bəlkə son üç əsrdə
Bir pislik gördüz bizdən?
Əgər dostca döysəniz,
Siz türkün qapısını.
Hörmət, izzət, dəbdəbə
Taparsız hamısını.
Yox əgər silah çəkib
Üstümüzə gələrsiz.
İnanın, bundan betər
Qırılarsız, ölərsiz.
Acımız çox böyükdür.
Yandırır bizi hələ.
Dərdə qəmə batıbdır,
Hər kənd, küçə, məhəllə.
Çalışarıq unudaq
Bunca ağrı-acını.
Amma bilin, vermərik
Vətənin baş tacını.

Dəniz Səttarlı
*12-ci yer.*







# Şəhid atanin şəhid oğlu

Soyuq qış gecəsi, qaranlıq meşə,
Hər yer tutulurdu min bir atəşə.
Kimisi qaçaraq qurtarır canın,
Kimisi ordaca tökürdü qanın.

Kimisi aclıqdan kimi soyuqdan
Daha irəliyə gedə bilmirdi.
Qadınlar uşaqlar bir söz qorxudan
Özünü toplayıb deyə bilmirdi.

Hamı dəstələrlə gedərək gizlin
Yol boyu Allaha dua edirdi.
Səssiz irəliləyib bu qaranlıqda
Sabaha çıxmağa ümid edirdi.

Getsə də özləri qalır izləri,
Onlardan qalan mal-mülkləri kimi.
Getsə də yerlərdən ayaq izləri
Getməz yaddaşlardan dəhşət izləri.

Onların içində olan bir uşaq
Gözünü zilləyib sakit duraraq
Düşünürdü:"görən,nələr baş verir?
Nədir bu dəhşətlər? nədir olanlar?"

İstər cavab tapsın suallarına,
Bilmir ki, nə desin bu hallarına
Dinməzcə yoluna davam edirdi
İçində səs verib dualarına.

...O qanlı gecədən bir müddət keçdi,
Onlar sağ salamat gəlib yetişdi
O dəhşət gecədən bir müddət keçdi,
Bir igid, bir əsgər oğlan yetişdi...

Uşaq olan vaxtdan necə dəhşətlər,
Necə vahimələr görüb gəlmişdi
Öz doğma yurdundan köçkün düşməyin
Necə hiss olduğun o vaxt bilmişdi

Odur ki, bu haqda xeyli düşündü,
Elə qərar verdi hərbçi olmağa.
Düşməni yurdundan qovub çıxardıb
Şəhid atasının qanın almağa.

Vaxt gəldi, düşmənlər pozdu hüzuru,
Xaincə silahın tətiyin sıxdı.
Toplardan, tanklardan atəşlər açdı,
Sərhəd rayonları dağıtdı,yıxdı.

Əsgərlərimiz bir an oldu səfərbər,
Geriyə oturdu düşmən ordusu.
Kafirin başına fırlandı dünya
Gözündə canlandı ölüm qorxusu.

Çox keçmədi,azad edildi çox kənd
Bizim igidlərin şücaətilə
Ordumuz gedirdi yenə irəli
Səs salıb dünyaya əzəmətilə





Ordumuz içində neçə il əvvəl
Burdan köçkün düşən oğlan da vardı.
Döyüş başlayandan cəbhəyə getmiş,
Çox igidlik edib,xidmət göstərmiş.

Qızğın döyüşlərin son günləriydi,
Düşmən məğlub olmaq üzərə idi
Soyuqda, şaxtada yorulsa da çox,
O da heç durmadan irəliləyirdi.

Birdən bir gurultu qopdu qabaqda,
Başını qaldırıb irəli baxdı.
Əsgər yoldaşının səsin eşidib
Bir anlıq düşünüb, ayağa qalxdı.

İstədi, qabağa getsin biraz da
Gözünə qaranlıq çökdü həmən an
Başa düşmədi heç, nə baş verdiyin,
Özünü keçmişdə hiss etdi bir an

Xatirinə gəldi uşaq vaxtları
Bu doğma torpaqdan necə getdiyi
Neçə illər öncə nə baş verdiyin
Deyəsən, o, artıq anlamış idi

O olmuşdu tamam halsız bir bədən,
Alıb verirdi son nəfəslərini.
Demək istəyirdi bir söz ölmədən,
İstərdi,dostları duysun səsini.

Getsə də bu qədər tez bu dünyadan,
Vicdanı, ürəyi çox rahat idi
Əlini qaldırıb uca tanrıdan
Əsgər dostlarına zəfər dilədi

Dünya üfüqünə çöksə də zülmət,
Ağarmış çöhrəsi gülümsəyirdi
Vətəni uğrunda öldüyü üçün
Özünü çox məğrur hiss eləyirdi.

Öz vətən borcunu ödəmişdi o
Haqqın dərgahına gedirdi artıq.
Şəhid dostlarının və atasının
Qisasın şərəflə almışdı artıq.

Keçdi saniyələr, keçdi dəqiqələr,
Tez qaçıb yanına gəldi əsgərlər.
Biri əyilərək yoxladı nəbzin,
Görüb ifadəsin, dondu digərlər.

...Keçdi neçə saat, keçdi neçə gün,
Neçə şəhid oldu vətən yolunda.
Ordumuz zəfəri çaldı sonunda,
Haqq ilə ədalət oldu bərqərar.

Azərbaycan əsgəri yazdı tarixin
Bu böyük və parlaq qələbəmizin!
Bəyan oldu bizim dost-düşmənimiz,
Hər yerdə duyuldu bizim səsimiz!





Mən bir Qarabağlı, yurduna bağlı,
Vətənin həsrəti var ürəyimdə.
Dərəli, təpəli, meşəli, dağlı,
O gözəl yerləri görmək istərəm.

Heydər Cabbarlı
*13-cü yer.*







# Azərbaycan şəhidləri

Torpaq sizə açdı qucaq,
Alovlandı sönmüş ocaq.
Vətən üçün yanan çıraq
Azərbaycan şəhidləri.

Torpaq sanki boğulurdu,
Nifrət, qəzəb yoğrulurdu,
Azərbaycan bu savaşdan
Qazi kimi doğulurdu.

Şəhidlərin ölməz ruhu,
Yaşar bizim qəlbimizdə.
Saxlayacam ömrüm boyu
Şəkillərin evimizdə.

Hər döyüşçü sinəsinə,
Böyük Vətən sığışmışdı.
Şəhidləri dəfn etməyə
Bütün millət yığışmışdı.

Yollarında gözü yolda,
Göyərmədi niskilimiz.
Yaramıza məlhəm oldu
Şəhid olan əsgərimiz.

Şəhid olmaq ölmək deyil,
Əbədiyyətə qovuşmaqdır.
Mənim borcum anaların

Göz yaşını silmək deyil,
Şəhid ömrün yaşamaqdır.

Hər doğulan yeni körpə,
Şəhidlərdən yadigardır.
Ürəyimin lap başında
Şəhidlərin yeri vardır

Aytən Bəxşəliyeva
*14-cü yer.*







# Şərəfli zəfər!

Bir yanda şəhidlər, bir yanda zəfər.
Bilmirəm ağlayım, yoxsa ki gülüm?
Belə gedişatda, belə durumda.
Ölmək yaşamaqdır, yaşamaq ölüm.

İndi içimizdə iki duyğu var,
İndi iki hissi,cəm etmişik biz.
Bir fərəh bilmişik müstəqilliyi,
Candan keçənləri,qəm etmişik biz.

Sevindik, şad olduq torpaq qayıtdı,
Əl çatmaz zirvəyə çıxan bayrağa.
Heyif ki, bayrağı kəfən seçərək,
Nə qədər igidlər getdi torpağa.

Otuz il həsrətin vəslinə yetdik,
Bir qarış qalmadı işğal ərazi.
Bunu asanlıqla əldə etmədik,
Əllərin, gözlərin itirdi qazi.

O qədər tökülən qan sayəsində,
Yenidən doğulur, canlanır Vətən.
Vətənin naminə canın verirlər,
Elə buna görə adlanır Vətən!

Şirinbacı Səfərova
*15-ci yer.*







# Haydı irəli!

Ürəyimiz Qarabağda döyünür,
İgid əsgər, xalqın sənlə öyünür
Ermənilər parça-parça bölünür,
Haydı, vətən oğlu, haydı, irəli!

Qarşıda görünən dağlar sənindir,
Suyundan qan axan çaylar sənindir.
Bulaqlar, yaylaqlar, yurdlar sənindir,
Haydı, vətən oğlu, haydı, irəli!

Buraxma qorxunu yaxın özünə,
Allah qüvvət versin sənin dizinə
Boşalt gülləleri düşmən gözünə,
Haydı, vətən oğlu, haydı, irəli!

Birləş türkün oğlu, əzmin, ordunla,
Vur düşmən başına dəmir yumruqla,
Müzəffər xalqınla, komandaınla,
Haydı, vətən oğlu, haydı, irəli!

Allah qalib etsin səni, ey əsgər,
Şəhid ol, qazi ol qələbəylə gəl,
Bir yumruq olaraq birləşdi ellər,
Haydı, vətən oğlu, haydı, irəli!

Nahid Rəsulov
*16-cı yer.*







# İgidlər oylağı Azərbaycanim!

Vətən həyat eşqi ,göz nurumuzdur
Vətən güvən yeri ,qürurumuzdur.
Hamımız qəhrəman ər oğlu,ərik
Şükürük,Poladıq,Mübarizlərik
Duyğumuz,hissimiz,qanımız vətən
Sənə qurban olsun,canımız Vətən !

Bəkildi,İmrandı ilk ustadımız,
Tarixi bəzəyir şanlı adımız.
Vətənin torpağı,daşı müqəddəs
Ayağı müqəddəs,başı müqəddəs.
Verməriк düşmənə bir qarışını
Çatdırın hər yana ismarıcımı

Azəri yurdunun nər balasıyıq,
Vətənin alınmaz ər qalasıyıq
Tomrisdən ,Metedən güc almışıq biz,
Bilsin bütün dünya ,eşitsin hamı
Daim bizimlədir ZƏFƏR BAYRAMI!

Gördü gücümüzü yağılar yenə,
Düşmənin tifağı dağılır yenə,
Zəngəzur ,Göyçənin sinəsi dağlı
Uşaqlı,böyüklü,qaralı,ağlı
Əmrin gözləyirik BAŞ KOMANDANIN !
Yenə bütövləşsin AZƏRBAYCANIM!

Aytac Hüseynova
*17-ci yer.*







# Darıxmışam Qarabağ

Qəzası mübarək oldu bizim Hikmət paşanın,
Almışıq Mübarizin,Raqufun,Poladın qanın,
Bu zəfər ruhuna yetsin ki,cənnəti məkanın.
Şad ol hədər olmadı sənin əməklərin üçün,
Bu bahar fərqli gələr şehli çiçəklərin üçün,
Darıxmışam,Qarabağ,mehli ətəklərin üçün!

Kəlbəcər, Xüdafərin eşq qoxulu kəlmələri,
Laçınımdan,Murovumdanmı seçim cümlələri,
Qovduq it qovan kimi bu yadları gəlmələri.
Sənə nağmə qoşuram arzu diləklərin üçün,
Bu bahar fərqli gələr şehli çiçəklərin üçün,
Darıxmışam,Qarabağ,mehli ətəklərin üçün!

İgidim,sən nə qədər mərd və cəsarət dolusan,
Şəhidim,sən bizə qeyrət dolu,izzət yolusan,
O mübarək qanın ilə Şuşanı sən yumusan.
Nə qədər yazsam əsər,azdır biləklərin üçün,
Bu bahar fərqli gələr şehli çiçəklərin üçün,
Darıxmışam,Qarabağ,mehli ətəklərin üçün!

Vətən oğlu,qədəmin mübarəkdir zəfər kimi,
Bu ay-ulduzlu bayrağı sanc əcəb hünər kimi,
Dərd olub düşmənə ah-nalə kimi,kədər kimi.
Çökmüsən çiskin olub ərşə fələklərin üçün,
Bu bahar fərqli gələr şehli çiçəklərin üçün,
Darıxmışam,Qarabağ,mehli ətəklərin üçün!





Xarı bülbül, daha çəkmə dərdi qəm nalə kimi,
Sənə eşq ilə qonar sübh düşən jalə kimi,
Qəlbi həsrət qoxulu şairəsi Lalə kimi
Qovuşub sığal çəkər nazlı ləçəklərin üçün,
Bu bahar fərqli gələr şehli çiçəklərin üçün,
Darıxmışam,Qarabağ,mehli ətəklərin üçün!

Lalə Zeynalova
*18-ci yer.*





Qarabağ Şəhidlərinin Əziz Xatirəsinə

# Oğul həsrəti

Sən indi yaşasan üzüm gülərdi.
Bəlkə də, saçını qoxlar yatardım.
Sənin qəlbindəki saf arzulardan
Bəlkə də,özümə dünya qurardım.

Arxanca dualar eylədim,oğul.
Məkanın günəşlə, nur ilə dolsun.
Dualar eylədim, bəlkə, çin olar.
Məkanım yanında bircə pay olsun.

Gözlərim dikilib getdiyin yola.
Bir möcüzə olar, çıxıb gələrsən,
Gecələr gözümü yummuram ki, mən.
Bəlkə, bu qapıdan bir də girərsən.

Bilmirəm, ay oğul, acsan, ya toxsan?!
Bilmirəm məzarın, yerin rahatdır?!
Yenə şəklin ilə mən dərdləşirəm.
Amma heç şəkildən cavab da yoxdur...

Məzarın üstündə diz çökürəm mən,
Elə hey danışıb, içim tökürəm.
Gələn məktubları xarırlayanda.
Qəlbimdə yaşayan körpə görürəm.

Qəlbim narahatdır səndən,ay ana.
Sil göz yaşlarını, ağlama daha.
Məkanım cənnətdir, yerim rahatdır,
Axı mən Vətənçün döyüşdüm, Ana!

Ağartma, anacan, sən saçlarını,
Geyinmə əyninə heç zaman qara.
Oğlun şərəf ilə şəhid olubdur.
Gözlərin qalmasın yolumda,Ana!

Fəxr eylə, anacan, fəxr eylə daha.
Qarabağ alındı,Vətən bütövdür!
Şəhid oğulların qanı alındı,
İndi biz rahatıq. Allah böyükdür!

Qırx dörd gün axıtdıq düşmən qanını.
İki dövlət ikən, bir millət olduq.
Sevinci, kədəri birgə yaşadıq,
O günlər öyrəndik biz bütövlüyü.

Nəzrin Nadirli
*19-cu yer.*







# Şəhid

Bəzəyin siz qəbrimi,
Əziz tutun xətrimi.
Düyün cənnət ətrimi,
Mən şəhidəm ay ellər.

Qalib gəldim düşmənə,
Qurban getdim vətənə,
Bəs eylər bu ad mənə,
Mən şəhidəm ay ellər.

Şəhidlik ulu dərddi
Bir İlahi qismətdi.
Yurd, sizə əmanətdi,
Mən şəhidəm ay ellər.

Ər Babəkəm, Cavadam,
Mübarizəm, Poladam,
Cəbrayıl tək övladam,
Mən şəhidəm ay ellər.

Qurana and içmişəm,
Hüseyn yolu seçmişəm.
Öz canımdan keçmişəm,
Mən şəhidəm ay ellər.

Qalib gəldim heyrətə,
Sığınmışam qeyrətə,
Yolum gedir cənnətə,
Mən şəhidəm ay ellər.





Xarı bülbülüm ağlar,
Mənə daim yas saxlar,
Azad oldu torpaqlar,
Mən şəhidəm ay ellər.

Ölümündən qorxmadan,
Heç gözünü qırpmadan,
Neçə oğul verdi can,
Mən şahidəm ay ellər.

Ancaq seçdim vətəni,
Ağlar qoymuşam səni,
Ana bağışla məni,
Mən şəhidəm ay ellər.

Mən almışam qana-qan,
Mən indi Azərbaycan.
Müqəddəsdir bu məkan,
Mən şəhidəm ay ellər.

Ləman İsazadə
*20-ci yer.*







# Vətən uğrunda

Döyüşə çağırdı bu doğma vətən,
İlham alıb keçmiş zəfərlərindən.

Kükrədi aslan tək bizim igidlər,
Yumruq tək birləşib cəngə girdilər.

Çətinlik nədir ki, onlar bilmədi,
Ürəkdən sadəcə "Vətən!" söylədi.

Dedilər: "Həqiqət zəfər çalacaq,
Qarabağ bizimdir, bizim olacaq!"

Dünya heyran qaldı türkün gücünə,
Qardaşı hay verdi qardaş səsinə.

Yerdə Mübarizlər, göydə Bayraqdar,
Dostlar bir olanda nələr bacarar.

İgidlər yığışdı, polad biləkli,
İgidlər yığışdı, aslan ürəkli.

Əzdilər düşməni dəmir yumruqla,
Döndülər vətənə min muştuluqla.

Mütləq zəfər çalar haqq və ədalət,
Məğlub olar mənfur, hiyləgər niyyət.

Nə gözəl yaraşır bu torpaqlara,
Üçrəngli bayrağım, ulduz, aypara.

Ermәni vәhşәti axır ki bitdi,
Namәrd düşmәnimin gücü tükәndi.

Qisası alındı Xocalının da,
Gözü yaşlı qalan anaların da.

Qisası alındı Azıx yerinin,
Qәdim Xocavәndin vә Füzulinin.

Qisası alındı Laçın, Ağdamın,
Qubadlı, Zәngilan vә Cәbrayılın,

Qisası alındı Kәlbәcәrin dә,
Qayıtdı xalqına Xudafәrin dә!

Bu il xarıbülbül erkәn oyandı,
Xilaskar ordunu o qarşıladı.

Şuşa qalasında, cıdır düzündә,
Vәtәn gülümsәyir, sevinc gözündә.

Hәr şәhid torpağın bağrında candır,
Әbәdi vәtәni Azәrbaycandır!

Zəhra Sultanova
*21-ci yer.*







# Qarabağ zəfəri

Azərbaycan qartal kimi daim zirvələrdə durdu,
Gördü bunu bütün dünya düşmən necə təslim oldu.
Otuz illik həsrətimiz qırx dörd günə unuduldu.
Çünki bizim qırx dörd günlük böyük zəfər yolumuz var,
Adına cənnət deyilən Qarabağtək yurdumuz var.

Otuz ildir yurdumuzdan ayrı düşdük, ayrı qaldıq,
"O gün olsun Qarabağa gedək",- dedik, arzuladıq.
Sevinirik, o gün oldu, Qarabağa biz yol aldıq,
Bu sevinci yaşadan dəmir güclü ordumuz var,
Adına cənnət deyilən Qarabağtək yurdumuz var.

Tarix boyu zirvələrdə dalğalanıb bayrağımız,
Ordumuzun sayəsində azad oldu torpağımız,
Heç zaman tək olmamışıq, var hər zaman dayağımız.
Türkiyətək, Pakistantək qardaşımız, dostumuz var,
Adına cənnət deyilən Qarabağtək yurdumuz var.

Bizim müzəffər ordumuz Qarabağı geri aldı,
Bayrağımız Şuşa, Laçın, Kəlbəcərdə dalğalandı,
Ruhu şaddır şəhidlərin, qanları yerdə qalmadı.
Qazilərə, şəhidlərə ömür boyu borcumuz var,
Adına cənnət deyilən Qarabağtək yurdumuz var.

Qarabağda dalğalanan bayrağımız vardır bizim,
Daim açıqdır alnımız, üzümüzsə ağdır bizim,
Ali Baş Komandanımız arxamızda dağdır bizim.
Fəxr eyləyir Azərbaycan İlham kimi oğlumuz var,
Adına cənnət deyilən Cənnət kimi yurdumuz var.

Fəzilə Aydəmirova
*22-ci yer.*







# Qarabağ zəfəri

Qoca tarix ayaq açdı,
Zaman keçdi, gün dolaşdı.
Mən doğuldum bu torpaqda,
Teoman oldum, Mete xan oldum.
Basılmadım, sarsılmadım.
Unutdurdum cismimi,
var olduğum ənginlərə sığmadım.
Şax yeridim öz yoluma, düz yoluma.
Xətayinin qılıncında parlayaraq Səlcuqların qoşununda poladlaşdım,
Babəklərin baxışında ildırımlar kimi çaxdım.
Sıçrayıb Qıratın belinə qalxdım,
Turaclı çöllərdə mən at oynatdım.
Şair Nizaminin gözəl vətəni
qoynunda bəsləyib böyütdü məni.
Vətən nədir, torpaq nədir bilməyənlər
xainliklə zəpt etdilər torpağımı.
Sipər etdim cəbhələrdə vətən üçün öz canımı.
Zülmkarlıq, haqsızlıqlar, işgəncələr,
Xalqım üçün qurulmuş torlar, tələlər
qarşısında vuruşsam da, savaşsam da,
qara torpağı al qanıma boyatsam da,
Aldılar əlimizdən bizim olanı - Xocalını
Ağdamı, Füzulini, Laçını, Şuşanı.
Naləli bir fəryad qalxdı göylərə,
düşmən ayağı dəydi vətən köksünə.
Ah yazıq Kəlbəcər, Zəngilan, Xocavənd
kimə əsir düşdü, kimlərə oldu bənd?
Tənha qalan Xarı bülbül ayaq altda əzildikcə,





bu vətənin qara bağrı səngər-səngər söküldükcə
yayılırdı harayları hər uca, hər bucağa.
Türk elinin milyard yaşlı məmləkəti
zəhər saçan bir əfinin əllərində getdi bada.
İntiqam hissi ilə coşdu Şuşa!
Damla-damla göz yaşları axdı gözdən,
Fəqət yazıq, bağrı yanmış Qarabağım uzaq düşdü bədənimdən.
Torpağımda qara donlu kafirlər yaşarkən,
quldurlar- ermənilər orda nəfəs alarkən
burda açan hər sabahda,susmayan vicdanlarda
gəlib durdu göz önündə matəmi-şühəda.
Uzun çəkdi bu ayrılıq, uzun çəkdi bu həsrət.
İyirmi səkkiz rəqəmini haqladı məhrumiyyət.
Məmməd Araz coşdu, qalxdı:
"Bu Şəhriyar harayıdı"
Bu Bəxtiyar harayıdı"
Silah tutan, külüng tutan nişanlı ər,
Hanı nərən, hanı səsin, hanı andın?
Qara Çoban, Dəli Domrul oğulların?
Üfüqünə, sərhədinə, silahına bərk-bərk yapış.
Üzərində yeridiyin yurd sənindir qarış-qarış.
Al qanına boyadığın bayrağınçün üsyan eylə!
Şəhriyarın nəfəsiylə dirçələrək oyan! Oyan!
Dur ayağa ya azad ol, ya tamam yan , Azərbaycan!
Bu ağrıya, bu acıya dözmədi dostluğun qolu,
əsrlərlə şeir, nağmə qoşulan qardaşlıq yolu.
Həmdəm oldu, dəstək oldu, şərik oldu.
Bütün dünya duysun dedi:

"Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət,
Hər ikisi cühhuriyyət
Azərbaycan-Türkiyə."
Vətən oğlu bu səhnədən ilhamını alınca
"yetər"-dedi, "qalx ayağa, bəşər"-dedi.
Geyib əsgər paltarını silahlandı,
Ürəklərdən alov qalxdı, pulemyotlar, toplar coşdu,
Gəncəm, Bərdəm düşmənlərin atəşinə düçar oldu.
Bu vətənin igid oğlu məğrur durdu, zülmətləri nurla boğdu.
Quş kimi cəld olub üzü üstə yatdı,
bir anda bir daraq güllə boşaltdı.
Polad sinəsini yerə verərək
köksündə şir kimi döyündü ürək.
Birdən-birə bir ürpəriş hasil oldu canında.
Dəlik-dəlik bədəninə qəlpələr tuş olanda
Gəlib durdu göz önündə türkün şanlı tarixi.
Gəlib durdü göz önündə Vaqifin şux gözəli.
Bir anda əsgər düşündü:
"Biz and içdik gen dərələr, sıra dağlar qarşısında.
Biz and içdik torpağından baş qaldıran babaların ocağına."
Nələr gördü tarix, nələr!?
Uçur tanklar, təyyarələr.
İgidlərin nəfəsindən alov qalxır.
Qəhrəmanlar dəniz kimi coşub-daşır.
Bunu görən əsgər qalxdı sərildiyi yerindən,
Qalxıb baxdı torpağına,
Topaq üçün cansız yatan şəhidinə





Dedi: "Vətən sağ olsun!
Mərd oğullar var olsun!
Mənim canım torpağa fəda olsun!"
Birdən-birə bu əsgərin gözünə al şəfəqlər saçıldı.
Yolu üstə öz bayrağı sancıldı.
Aydınlıqdan səda gəldi həmən səs.
Dəmədimmi qalxan bayraq enənməz!?
Gözlərimdə al şəfəqlər kimi şanlı hilal.
Tökülən qanlarımın həpsi halal.
Budur yazdıq Qarabağın qəhrəmanlıq dastanını.
Bir dastan ki, qırx dörd səhifəsinin hər birində qələbə
Bu dastanın sətirləri sığmaz heç bir qəlibə!
Ey qeyrətli, qüdrətli Azərbaycan ordusu!
Sən günəşin ilhamı ilə yarıb keçdin hər zülməti,
Bayrağına yazılmışdır qəhrəmanlıq ülviyyəti!
Qansız cəllad qan içdikcə, can yedikcə yığın-yığın.
Sən alnına nəqş eylədin şərəfini insanlığın.
Bu ordunun tərkibində vətən üçün qan tökənlər!
Güllələrə baxmayaraq şəhadətə yol açanlar,
Gələcək nəsillərə bölünməz yurd buraxıb
Yırtıcılar önündə aslan olub kükrəyən şəhidlər!
Vətən sevgisini iman bilib, əbədiyyətə yürüyən şəhidlər!
Acı ölüm tasından içib irəliyə atılan,
Ürəklərdə qalan, yaddaşlarda yaşayan qəhrəmanlarım!
Qarşınızda baş əyirəm milyon kərə
Sizin kimi igidlərə eşq olsun deyirəm!
Ruhunuz daima şad olsun deyirəm!
Yerinizdə rahat yatın, çünki bu gün
Bu vətənin hər övladı bəxtiyardır.

Damarında coşan qanı Qarabağdır.
İndi deyə bilirəm mən Qarabağın gur səsiylə
Sakit axan Arazların nəğməsini...
İndi deyə bilirəm mən Qarabağa çəkinmədən:
"Sən bizimsən! Sən bizimsən!"
Ah şairlər, Qarabağın eşqi ilə aşıb-daşan Vurğun qəlblər,
Siz hardasız?
İndi başım ucalarda, könlüm məğrur,
Ürəyimdə hey çağlayan vətən eşqi.
Artıq Şuşanın önündə boynu bükük deyiləm mən!
"Əziz Şuşa, biz qayıtdıq!" "Əziz Şuşa, sən azadsan!"-sözlərini
asanlıqla deyirəm mən!
Şuşanın göylərində dalğalan, ey şanlı hilal!
Qoy titrəsin ürəklər!
Qartallara qanad ol, düşmənlərə inad ol!
Dalğalan ki, var olum!
Dalğalan, işıq saç zəfər yoluma.
Sən dalğalan, qoy yaşasın al rəngində qan boyanmış əbədiyyət!
Gəlin kimi yaylıq açıb rəqs eyləsin qoy məhəbbət!
Günəş kimi bayraq çəksin üfüqlərdə qoy səadət!
Biz gəlmişik!
Günəş saçsın işığını, bahar gəlsin Qarbağa!
Biz gəlmişik!
Həyat ilə zinət tapıb nəfəs alsın bütün varlıq!
Biz gəlmişik!
İlan başlı o əjdaha qoy udmasın haqqımızı!
Bir də zülmət qanad açıb qoy almasın dağ başını!
Qayıtmışıq, Cıdır düzü! Qayıtmışıq, əziz Şuşa!
Bizim üçün aç qolunu, bağrına bas!





Şahid çağır ölkələri, dənizləri, ümmanları,
haqq yolunda öz canını qurban vermiş insanları
şahid tutub bağrına bas!
Ey Natəvan, ey xan qızı, ey xan babam, ey Seyidim!
Ey nəğməsi dilə dastan Üzeyirim, ey Bülbülüm!
Gəlin bizi qarşılayın!
İyirmi səkkiz illik bir səfərdən qayıtmışıq, Qarabağım!
Yaralarını qanımızla sarımaqçün qayıtmışıq!
Sənə həyat vermək üçün Xudayarın təsnifiylə qayıtmışıq!
Dinlə məni, coşdu könül, ilhamlandı duyğular,
Dilə gəldi zindanlara məhkum olan arzular:
Vətənimə, eşq olsun! Qəhrəmana, şəhidlərə eşq olsun!
Komandana eşq olsun!
Dağlar, daşlar, bütün cahan dilə gəldi,
Dastan oldu Qarabağın haqq nəğməsi.
Dalğalandı tarın səsi-
Qarabağın şikəstəsi!
"Könlüm keçir Qarabağdan
Gah bu dağdan, gah o dağdan.
Axşamüstü qoy uzaqdan
Havalansın xanın səsi,
Qarabağın şikəstəsi!"

Nərgiz Abbaszadə
*23-cü yer.*







# Can Qarabağ

Mərd Azərbaycanımın qorxmaz igid oğulları,
Qalxdılar Murovdan Şuşaya qədər o yolları.
Qələbə andı ilə başladılar hücumları
Sanma qırx dörd gecəlik hərb olub asan,Qarabağ!
Zəfərin mübarəkdir artıq azadsan,Qarabağ.
Sənə yüzlərlə şəhid oldu fəda,can Qarabağ!

Atın üstündəki türk deyilsə, yükdür dedilər
Döndülər qorxu ilə bu gələn türkdür dedilər.
Qorxdular igidimdən cürəti bərkdir,dedilər
Qaçdı meydanda döyüşdən belə düşmən,Qarabağ!
Zəfərin mübarəkdir,artıq azadsan,Qarabağ!
Sənə yüzlərlə şəhid oldu fəda,can Qarabağ!

Cəbrayıl,Füzuli,Qubadlı,Zəngilan və Şuşa
Azad olundu yurdumun hər yeri gəldi cuşa
Laçın,Ağdam və Kəlbəcər də təslim oldu yaşa
Yaşa ey şanlı vətən, can sənə qurban,Qarabağ!
Zəfərin mübarəkdir artıq azadsan,Qarabağ!
Sənə yüzlərlə şəhid oldu fəda ,can Qarabağ!.

Ali baş komandanımla, birləşən ordum ilə
Ehtişamla dalğalanan nazlı hilal yurdum ilə
Daha vidalaşıram Xarı bülbül dərdim ilə
Dastan oldu ellərə,dillərə dastan Qarabağ
Zəfərin mübarəkdir artıq azadsan,Qarabağ!.
Sənə yüzlərlə şəhid oldu fəda, can Qarabağ!

Qarabağ Azərbaycandır!-şüarı ilə bitən
Döyüşün bir gecəsi yatmadı bu xalqla vətən
Qəlbimiz döyündü bir, hər dəqiqə,hər an ötən
Xatirə yazdı bu şeiri sənə Nurlan,Qarabağ!
Zəfərin mübarəkdir artıq azadsan ,Qarabağ!
Sənə yüzlərlə şəhid oldu fəda,can Qarabağ!

Nurlan Zeynallı
*24-cü yer.*







# Qarabağın zəfər səsi

Qarabağ hifz oldu dərd-bəlalardan,
Çıx Bayat başına bax qalalardan.
Qədim yurdumuzdan, el-obalardan,
Duyduğum təkbirlər əsgər səsidir,
Bu səs Qarabağın zəfər səsidir.

Aldı mərd oğlanlar vətən diyarın,
Düşmənə dağ etdi canlı divarın.
Ülfət biləklərin,min Xudayarın,
Polad ürəklərin hünər səsidir,
Bu səs Qarabağın zəfər səsidir.

Azadlıq nəğməsin eşidib gülən,
Tarixi əsərlər bizimdir əslən,
Şuşa dağlarından sədası gələn,
Təsnif,şikəstənin dilbər səsidir,
Bu səs Qarabağın zəfər səsidir.

Oğlunun al-qanlı libasın geyən,
Çörəyin yaşıyla isladıb yeyən,
Qisası ərşinə qalmasın deyən,
Şəhid anasının yetər səsidir,
Bu səs Qarabağın zəfər səsidir.

Cəlil Rəhimov
*25-ci yer.*







# Qarabağım

"Torpaqlarımızın iyirmi faizi
İşğal altındadır." cümlələrini
Uşaqlıqdan bəri eşidirəm mən,
O vaxtdan bürüyüb hüzn qəlbimi.

Səndən ayrı qalmaq dağlayır məni.
Gözüm görmək istər gül-çiçəyini.
Necə gözəl, necə zərif bir incisən sən.
Ciyərim duymaq istər təravətini.

Hər kəsi özünə aşiq etmisən.
Könlünü dağlayıb, viran etmisən.
Nazlı ceyranımsan, ey Qarabağım,
Qoxunla hər kəsi valeh etmisən.

Qızıldan qiymətli nə var, desələr,
Saysız-hesabsız cəvahir versələr,
Səfehsiz! Cahilsiz! deyərdim onlara,
Səndən daha dəyərlisi vardır desələr.

Ancaq o oğrular aldılar səni,
Dağıdıb, məhv etdilər cənnətimizi.
Mənfur düşmənə lənət olsun ki,
30 illik həsrətlə qoydular bizi.

Hamımız ağladıq, yas tutduq hər an.
Nisgil əksik olmadı qəlblərdən bir an.
Səni öz gözümlə görmək istəyi,
Sönmədi, bitmədi o, heç bir zaman.





Bir gün eyvanda oturarkən mən
Atamdan soruşdum o an qəfildən.
"Ata, Qarabağa getmisən mi heç?"
Atamın gözündən yaş gəldi birdən.

Ekrandan şəklinə baxanda sənin
Titrəməyə başlayır, göz bəbəklərim.
Uşaqlıq xəyalım yadıma düşür,
İçmək istəyirdim suyundan sənin.

Ancaq bütün bunlar keçmişdə qaldı!
Bitdi anaların naləsi, ahı!
Bitdi bu ayrılıq, can Qarabağım!
Sevinclə qeyd edək biz bu bayramı!

Minnətdaram igid əsgərimizə!
Canını qurban verən şəhidimizə!
Ruhunuz qarşısında baş əyirəm mən,
Can borcumuz vardır hər birinizə!

Daha ağlamaq yox, təbəssümlər var!
Daha qəm kədər yox, qəhqəhələr var!
Yaşasın Azərbaycan! Yaşasın Vətən!
Qarşıda sadəcə gözəl günlər var!

Nəzrin Məhərrəmova
*26-cı yer.*







# Tarixi zəfər

Mənfur düşmənləri qovub çıxartdı,
Qırx dörd gün ərzində qalib ordumuz!
Yenə xarı bülbül bitdi, boy atdı,
Bayram libasını geydi yurdumuz!

Hədəfə dönmüşdük, düşmən əlində,
Yuduq bu damğanı qanımızla biz!
Murov zirvəsində, Laçın çölündə,
Ölümlə üzləşdi, keçdi ömrümüz!

Qarabağ yolunda, vətən yolunda,
Döyüşə atıldı qızlar, oğlanlar!
Bir ana yolunda, vətən uğrunda,
Şəhid zirvəsinə, qovuşdu onlar!

Çıxdıq dərdi-sərin əhatəsindən,
Azad nəfəs aldı Kəlbəcər, Şuşa!
Başımız üstündən ötdü duman, çən,
Dəydi atdığı ox düşmənin daşa!

Dözdü hər möhnətə başımız bizim,
Ağdərə, Xocalı, Ağdam gedəndən.
Döndü ilk bahara qışımız bizim,
Alındı torpaqlar, qayıtdı Vətən.

Pay verdi ömrünü şəhidlər bizə,
Açıb çiçəklənən arzular olduq!
Zülməti adlayıb, çıxdıq gündüzə,
Payız tək solmuşduq, ilk bahar olduq!

Gülxarə Rüstəmova
*27-ci yer.*









# Şəhidimin vəsiyyəti

Rica eyləyirəm, silah dostlarım
Mənim ölümümə kədərlənməyin!
Mənim axan qanım, torpağa fəda!
Düşmən susanadək geri dönməyin!

Təvəqqe edirəm, silah dostlarım!
Məni dəfn edəndə anam gəlməsin,
Məni son mənzilə yola salanda,
Anam ağlamasın, heç kövrəlməsin!

Anamı qoymayın saçların yola!
Bacım nalə çəkə, gözləri dola!
Atama söyləyin əsgər oğlunu
Sonuncu mənzilə, O, yola sala!

Əlvida! Deyirəm sevdiyim yara!
Qovuşa bilmədim nazlı dildara,
İstəyimdir: xoşbəxt olsun həyatda!
Bağışla! Deməyi unutma, ey dost!

Mən çox xoşbəxtəm ki, Vətən yolunda
Canımdan keçərək ŞƏHİD oluram!
Qanım fəda olsun Vətən uğruna,
Ana torpağımda torpaq oluram!

Vəsiyyətə cavab.

## ŞƏHİDİM;

Qurban olum sənin ŞƏHİD adına
Öz qanıyla dastan yazan , igidim!
Sadiq oldun Vətən üçün andına
Vətən üçün qurban gedən, Şəhidim!

Xocalının qisasını aldın, sən!
Yarım qalmış arzusuna çatdın, sən!
Tarixlər içində, tarix yazdın, sən!
Duruşu vüqarlı, ölməz Şəhidim!

Şahin kimi zirvədəsən, Şəhidim!
Ürəklərdə, dillərdəsən, Şəhidim!
Sən zəfərin imzasısan, Şəhidim!
Azadlıq mələyi, ölməz Şəhidim!

Vətən sənsən! Vətən sənin adındır!
Zəfərlərin, tarix yazan qanındır!
Müzəffərsən! Bu ki sənin adındır,
Qələbə müjdəli, ölməz ŞƏHİDim!

Altun Abdullayev
*28-ci yer.*









# Vətən uğrunda

Əvvəllər Qarabağın adı gələndə
Qəribə bir buruqluq olurdu qəlbdə.
Sanki bitməyəcəkdi bu qorxunc yuxu,
Qarabağsız qalmaq idi bizdəki qorxu.

Lakin bir gün hər şey dəyişdi birdən,
O qorxunc yuxudan ayıldıq bir dəm.
Şəhərin izdiham dolu küçələrindən,
Polad, İlqar adları səsləndi hər dəm.

Eşidilir nalələr Bərdə, Gəncədən,
Məzara köçdü o gün neçə körpələr.
Dünya susmaqdadır... Hələ çox ellər,
Nəsibini almamış bu qatillərdən!

Bəli, susmayacağıq heç bir zaman biz!
Gözləməyin, haqsızlığa göz yummarıq biz!
Bax indi əsl Əlif, Mübariz,
Övladıyıq, atasıyıq, qardaşıyıq biz!

Qəlblərdə iz qoyarıq Xudayar kimi!
Gerçəkləri duyurarıq Çingizlər kimi!
Cəsur olub savaşarıq Salatın kimi!
Tarixlərdə anılarıq dastanlar kimi!

"Bir taleyin oyununda cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da qoşa düşmərik".
Məmməd Araz arzusudur türklükdə birlik,
Dünya bizi ayırsa da, biz birlikdəyik!





Dəmir bir yumruq ol düşmənə qarşı!
Cəhənnəm et ona yeddi qat arşı!
Vətən torpağı uğrunda gedən savaşı,
Müzəffər olub bitir, al hər qarışı!

Bir ol, bir addımla düşmənə inad!
Çərxi-fələyi artıq tərsinə fırlat!
Bozqurd olduğunu dünyaya anlat!
İslamı, türklüyü zəfərlə ucalt!

Nəzrin Abdinli
*29-cu yer.*







# Tarix yazan şəhidim

Sən Vətən uğrunda tökdün qanını.
Aldın aslan kimi yağı canını.
Türk oğlu, türk kimi girdin meydana
Sən ey qəhrəmanım, sən ey Şəhidim!
Qanıyla tarixi yazan Şəhidim!

Vüqarlı Laçınım, bəzəkli Şuşam.
Qeyrətli Qubadlım, ər Zəngilanım.
Dərdli Xocalımsan, viran Ağdamım.
Dönməz Füzulimsən, mərd Cəbrayılım.
Bütöv Qarabağım, Azərbaycanım!
Sən ey qəhrəmanım, sən ey Şəhidim!
Qanıyla tarixi yazan Şəhidim!

İlhamdan ruh alıb girdin meydana.
Vətənə sinəni sipər elədin.
Qisas alovuyla sən yana-yana.
Düşmənin bağrını al-qan elədin.
Zəfəri gətirdin Azərbaycana.
Sənsən qəhrəmanım, sən mərd
Şəhidim! Qanıyla tarixi yazan Şəhidim!

Qaytardın xalqına ötən iləri.
Qaytardın həsrətdə qalan elləri
De, necə unudar bu Vətən səni?!
Heydər siyasəti. Atatürk əzmi!
İstiqlal marşıyla coşan Şəhidim!
Sənsən qəhrəmanım, sən mərd
Şəhidim! Qanıyla tarixi yazan Şəhidim!

Mətin Əlizamanlı
*30-cu yer.*










# Qardaşlıq zəfəri

Azərbaxcan zəfər çaldı
Haqq səsini ucaltdıqca.
Şeylanlaşan.
Üzsüzləşən düşməninə
Nifrətini boşaltdıqca.
Əyilməyən vüqarını.
Tükənməyən inamını
Haqq yolunda məğrur-məğrur sərgilədi.
Dünya susdu, düşmən çökdü
Dəmir yumruq qorxusundan.
Elimizin atası, əməli saf.
Məsləki pak rəhbərimiz
Dünyadakı haqsızlığa sinə gərən
Liderimiz İLHAM kimi
Dik duruşlu.
Alicənab bir atanın qayğısından.
Sevgisindən
Türk övladı başdan başa əsgər oldu,
El atası qayğıkeşdir.
Hər şəhidin övladına. külfətinə böyük dayaq.
Təsəllidir.
O, dahidir.
O, HEYDƏRİN bu millətə sevinc payı.
O, hikmətdir, xəzinədir.
O,Turanın - türk elinin basılmaz bir qalasıdır.
Şərqə, qərbə od püskürən.
Ədalətin təşviqinə xidmət edən
ƏRDOĞANIN qardaşıdır.

Nə qədər ki, bu qardaşlıq.
Bu siyasət.
Nə qədər ki, bu missiya davam edir
Nə bir yetim əziləcək.
Nə bir şəhid unudular.
Neçə - neçə şəhidimin ruhu sakit.
Balası xürrəm olacaq.
Çünki VƏTƏN - Azərbaycan tam bütövdür.
Yarasızdır.
Vətənimin rəhbəri isə
Ulu HEYDƏR balasıdır.

Səhər Fətəliyeva
*31-ci yer.*











# Destan

Bir destan anlatacağım
Konu vatan, mevzu sen.
Hep sustum ben konuşacağım
Azerbaycan ben, ruhum sen.

Dinle dünya sesimi
Bu ses türkün sesidir.
Dillere destan olan
Şehitimin sesidir.

Konuş Hudayar, konuş
Susma, söyle şarkını.
Anlat destan olmanı
Dillerde dolaşmanı

Duy sesimi ey düşman
Baş tutmadı planın
Kanımla tarih yazdım
Aldım ben toprağımı

Bir tarafta silahlar
Diğer tarafta bomba
Şehit mi düştün asker?
Cennet koktu buralar.

İki, yedi, sekiz, üç
Rakam deyib geçme, dur!
Şehit kanı var orda
Gezdiğin o toprakta





Vatan beni çağırdı,
O gün akşam ordaydım.
Elimde silahımla
Nöbet sabahındaydım.

Ben evden ayrılırken,
Sakın bekleme dedim.
Ya Karabağ, ya ölüm,
Başka çare yok dedim.

Yerdeki su değil, kan!
Kimin kanı, ona bak.
Bayrağın gölgesinde,
Yatan o mezara bak.

Üstümde ağırlık var
Akan kanıma bi' bak
Yaralıyım, yerdeyim,
Acılar içindeyim.

Ne garip ki duymuyor,
Ruhum artık acıyı.
Ben kahraman bir Şehit,
Yolun sonu sanırım.

Ölmem ben hep yaşarım
Yaşadım ve yaşarım
Gözümün içine bak düşman
Yaşatmamda, yaşarım!

Ben İngilis değilim,
Adım bayrağım olsun.
Ben türküm ve askerim,
Ancaq Vatan sağ olsun!

Sakın ağlama anne,
Şehit oldu bak oğlun.
Öldüm geri dönmedim
Aldım yine yurdumu.

Ayan Əhmədli
*32-ci yer.*







## Ata vəsiyyəti

İki min yeddi yüz səksən üç ürək
Vətən göylərinə olacaq dirək.
Ana yurdum, bunu eşit, bunu bil,
Ərənlər torpağı bölünməyəcək!

İllərdir bu vaxtı gözləyirdik biz,
Bu gün Qarabağdan gəlir səsimiz.
Torpağa qan verib, bizə can verən
Sağ ol, Laçın gözlü igidlərimiz.

Şərəfimiz Qarabağdakı addır,
Xarıbülbül, Şuşanın könlü şaddır.
Ürəyim hayqırdı içimdə birdən
Deyin şəhidlərə, o yer azaddır!

Cəbrayıl, Arəstə, Turqut, Xudayar
Vətənin sizlərə ehtiyacı var.
Səsləndi bu sözlər bir nida kimi
Bu cəsur igidlər istehkam yarar!

Baxıram qürurla xəritəyə mən,
Deyirəm:Ey qartal, sən də bir dillən.
Məlhəmdir yarana gözəl Qarabağ,
Qanadlanıb tez uç indi o yerdən.

Bayrağımı sancdım o əziz yerə
"Ata vəsiyyəti doğruldu",-deyə.
Dəmir yumruq gücü gördülər onlar
Ali Baş Komandan düşdü tarixə.

Rəna Şabanzadə
*33-cü yer.*







# Şəhidlər

Bir ağri, min sevinc coşur qəlbimdə
Şəhidlər üzündə gülüşü gördüm
Üstündən silindi qara ləkələr
Millətin əyilməz duruşun gördüm

Cənnətin qapısı açıldı birdən
Şəhadət kəlməsi düşmədi dildən
Başımız ucadır tam otuz ildən
Səması zəfərli söyüşü gördüm

Ağladı qəm çəkdi şəhid anası
Sevgisi qəlbində getdi balası
Sağalmaz heç zaman bala yarası
Bir məzar içində görüşü gördüm

Sən qalib ölkənin qalib oğlusan
Yalnışın olmadı haqsan doğrusan
Düşmənə dağ çəkib dastan olmusan
Soyumuş üzündə gülüşü gördüm

Sizlər yaşayarsız yaşadıqca biz
Yerə düşməyəcək millətində diz
Tarixdən silinməz şəhid qoyan iz
Bir olan Allaha dönüşü gördüm

Qabil Şikarov
*34-cü yer.*







# Mən səni aldım, sən məni, torpaq!

Şəhid Məmmədzadə Cahan Saleh oğlunun xatirəsinə həsr edirəm...!

Dinlə,yaxşı dinlə sən Cahanın hekayəsin!
Qaranlıq və çox soyuq o Noyabr gecəsin
Qovurduq anbaan açılsın tez səhər
Yaxında pusquda dayanıb düşmənlər

Hər tərəf təhlükə,hər tərəf qorxu
Sabah Şuşadayıq,gercəkdi yay oxu
Son addım qalıbdı Şuşaya girməyə
Bəlkə də,son nəfəs qalıbdı verməyə

O yanda gözləyir,nişanlım və anam
Burdasa sən Şuşa,Mən sənə qurban
Seçirəm mən səni yaralı vətənim
Əlimdə avtomat,boynumda kəfənim

"300 spartalı"gedir son döyüşə
Qazanar deyiblər son gülən həmişə
Nə qorxu həyəcan,nə sevgi,nə həsrət
Qarşıda düşməndi,birdəki nifrət!

Dağ kimi yeriyib ölümün üstünə
Mat qoyduq dünyanı biz Türkün gücünə
Cahan,yat pusquya söyləyir yoldaşım
Tülküdən gizlənmək ayıbdır,qardaşım

Cəhənnəmə şükr edər bu döyüşü görənlər
Qaçır caqqal kimi gizlənir düşmənlər
Bir ölüb,min dirilib biz gedirik yenə
Gedirik yel kimi düşmənin üstünə





Döyüşür yaralı çiynində yoldaşı
Hələ görməyibdi dünya bu savaşı
Bal kimi daddıqca qələbə zövqünü
Sevincdən unutdum düşməni ölümü

Uzaqdan snayper gurlayır birdən
Ayaqlar üzülür,üzülür yerdən
Bu da son döyüş,bu da son nəfəs
Çağırır göylərdən, çağırır bir səs

Dikilir gözlərim laciverd göylərə
Kaş görə biləydim anamı son kərə
Necə də gözəldir göydəki tamaşa
Oxu son laylamı yatıram ay Şuşa

Sonuncu zəngində soruşmuşdu anam
Təmir qurtarıbdı boş qalıb tavan
Ora nə işləyək soruşur ustalar
Bu payız yəqin ki,toy olar ay bala
Tavana çəksinlər üç rəngli bayrağı
Mən səndən çox sevdim, ay ana torpağı

Son nəfəs vermədən çatdım son arzuma
Həsrətlə baxıram qalanın başına
Ucalır qalada üçrəngli bayraq
Mən səni aldım,sən məni torpaq

Nərgiz Nemətli
*35-ci yer.*







# Şəhidlər

Ölümü qəlbləri yandıran,
Ömrü şimşəyi andıran,
Bağlarda qəfləti qırılan,
Çinarın qisməti Şəhidlər!

Canından keşməyi bacaran,
Sevgidən, qisasdan güc alan,
Bir anda gözlərdə ucalan,
Hamının övladı Şəhidlər!

Gəncliyi uçmamış sanılan,
Ürəkdə, könüldə iz qoyan,
Yollara gizlicə boylanan,
Gözəlin qisməti Şəhidlər!

Məzarı varsa da , yoxsa da,
Gülləri qalsa da, solsa da,
Baxanın gözləri dolsa da,
İftixar surəti Şəhidlər!

Atanın evinin çırağı,
Ananın boş qalmış qucağı,
Həyatin tüstüsüz ocağı,
Həyatın qiyməti Şəhidlər!

Yolunda ədalət, həqiqət,
İçində , ruhunda cəsarət,
Qüruru, vüqarı dəyanət,
Vətənin şöhrəti Şəhidlər

Nuray Məlikzadə
*36-cı yer.*







# Zəfər yolu

Bu yol haralara aparır məni,
Mən yaxşı bilmirəm hara gedirəm.
Qəhrəman ordumuz qovdu düşməni,
Gedirəm çox uzaqlara, gedirəm.

Ürəyim qürurdan dönübdür dağa,
Sevinə gedirəm, gülə gedirəm.
Qol açıb gedirəm mən Qarabağa,
Qarışıb çiçəyə-gülə, gedirəm.

Sevinc yaşlarıdır gözüm dolduğu,
Bir vaxt həsrətində solduğum Vətən.
Ərən igidlərin şəhid olduğu,
Çoxdan həsrətində olduğum Vətən...

Cənnətə bənzəyir Laçın, Kəlbəcər,
Şuşanı görməyə gedirəm daha.
Çəkildi ölkəmin üstdən qara şər,
Bizdən uzaq düşdü kədər, qəm daha.

Bu yol haralara aparır məni,
Mən yaxşı bilmirəm hara gedirəm.
Qəhrəman ordumuz qovdu düşməni,
Gedirəm çox uzaqlara, gedirəm.

Gülşən İsmayilova
*37-ci yer.*







# Şanlı zəfərimiz

Sevincdən köksümə sığmır ürəyim,
Qələbə sevinci yaşayıram mən.
Kama yetdi bu gün arzu diləyim,
Müzəffər ordumla fəxr edirəm mən.

İblisin, şeytanın beli qırıldı,
Bulanan sularım bu gün duruldu.
Qarabağ işğaldan azad olundu,
Şanlı bayrağımı asmalıyam mən!

Füzuli, Qubadlı, Ağdam, Zəngilan,
Sevinir Xudafərin, coşur Suqovuşan,
Yaşa, var ol səni Cənab Komandan,
Yüksək aliliyinə baş əyirəm mən.

Azad etdik bu gün Şuşa, Laçını
Təbrik edirəm qardaşımı, bacımı.
Unutmuşam bu gün ağrı, acını
Sevincdən ürəkdən ağlayıram mən

Şad oldu Ulu öndərin ruhu
Şad oldu bütün Şəhidlər ruhu,
Məhv oldu yurdumdan erməni xofu,
Düşmənlərə ölüm söyləyirəm mən.

Yaşa Azərbaycan, yaşa Türkiyə
Heyran oldum bu dostluğa, birliyə.
Düşməni atdılar bir zibilliyə.
Qardaş dəstəyinlə fəxr edirəm mən.

Ey cənnət məkanım Xan Qarabağım.
Mənim füsunkar doğma diyarım.
Ürəyim, qəlbim ,canım, ciyərim.
Şanlı zəfərinlə öyünürəm mən

Hikmət Dəmirov
*38-ci yer.*







# Mübarizlər

Vüsala döndü otuz illik hicran,
Gəldi Mübarizlər qisas almağa
Boz qurd balaları sanki bir aslan,
Gəldi Mübarizlər qisas almağa!

Polad qalxanıdı qisasın adı.
Murov qartalıdı qisasın adı.
Albert,Canpoladdı qisasın adı.
Gəldi Mübarizlər qisas almağa!

Kəfənsiz şəhidlər bizi səsləyir.
Qırxqızdan döyüşü Əlif izləyir.
Tikanlı zəmidə Əlyar gözləyir.
Gəldi Mübarizlər qisas almağa!

Xudafərin üstə üçrəngli bayraq,
Bir bayraq altında birləşsin torpaq.
Gözün aydın olsun,anam Qarabağ,
Gəldi Mübarizlər qisas almağa!

Rəhman Rəmzi
*38-ci yer.*







# Xudayar oxuyan təsnif....

Qarabağ, könlümüzün sənsən əzəl sevdâsı,
Bitdi artıq fələyin kabus olan röyâsı,
Bu vətən məfhumuna sənsən əsas,
Səni ixlâsımız etməkdə xilas.

Saçdı azadlıq üfüqlərdə günəş misli şəfəq,
Bu şəfəq oldu qaranlıqda əvəzsiz rövnəq.
Oldu canlar sənin uğrunda fəda,
Etdi övladların öz borcun əda...

Keçirik biz canımızdan ki, bu torpaq yaşasın,
Şuşaya sancılan üç rəngli bu bayraq yaşasın.
Oldu cəngində hər əsgər fateh,
Oldu aləm sənə təkrar valeh.

Neçə övladın olubdur vətən, olmaqla şəhid,
Neçə övladın ərəndir, neçə övladın igid.
Kəfən olmaqda neçə hərbi libas,
Səni ixlâsımız etməkdə xilas.

Onlar olmaqla şəhid yaydılar ətrâfa rifah,
Yerdə fəryâd analar, göydə mələklər edir ah.
Bu səhər doğdu günəş qırmızı rəng,
Güllələr çaldı zəfər nağməli zəng.

Hər şəhid sonda təbəssümlə yumur gözlərini,
İndidən bəlkə də cənnətdə görür özlərini.
Onların hər birini sonsuzadək
Aparır cənnətə bir dəstə mələk...

Hər külək indi Xudâyâr oxuyan təsnifdir,
Xarı-bülbüllərə artıq bu bahar təşrifdir.
Yenə quşlar vuracaqlar cəh-cəh,
Saracaq bir daha ətrafı fərəh.

Sabir Əliyev
*40-cı yer.*









# Şanlı tarix

İllərdir gözümüz yollarda qalıb,
Arzular ürəkdə coşub-çağlayıb.
Qovuşmaqçün ora hər gün can atıb,
Sənlə bütövləşir, Vətən.Qarabağ!

Tək şəhid olmadı cavan igidlər,
Namərd gülləsinə kiçik balalar.
Ağsaçlı analar,gəlinlər,qızlar
Vətənə sinəsin sipər etdilər.

Heç vaxt tükənmədi ümidlərimiz,
Bilirdik tapacaq haqq öz yerini.
Böyük rəhbərimin bax bircə sözü
Ayağa qaldırdı bütün milləti.

Daha ağlamasın şəhid anası,
Qayıtmış torpaqlar öz sahibinə.
Şəhid oğulların ruhu azaddır,
Ucalır göylərə bayraqla birgə.

Murov zirvəsinə qalxdı igidlər,
Haqqı, ədaləti bərpa etdilər.
Xudayar deyirdi :"Dastana döndüm",
Dastana döndülər bütün igidlər.

Dağ çəkdi düşmənə Şuşa xəbəri,
Qovaraq onları qaytardıq geri.
Əsirdi qorxudan düşmən əsgəri,
Bir an'tükənmədi xalqımın əzmi.





Murovda səslənən bayatılara,
Laçından səs gəlir bura harayla.
Ağdamın çölləri gözəl bir layla,
Qovuşar Cəbrayıl bulaqlarında,
Səslənər Qubadlı qayalarında,
Səslənər Zəngilan yaylaqlarında,
Səslənər Vətənin hər qarışında.

Nuray Məmmədli
*41-ci yer.*






Qarabağ Şəhidlərinin Əziz Xatirəsinə

# Şehitlik zirvesi

Şehittir can veren, uğrumuzda ölen,
Ya Hayy! deyüp, mazluma kanat geren,
Allah için harp meydanında can veren,
Göğsümüze siper olanlarındır.
Evladı yarım kalan şehitlerindir!

Şüphesiz giren Cennet-i ala bağına,
Mazhar olan Allah-u Teala rızasına,
Layık olan halkın payidar sevgisine,
Hiç yorulmadan cenk edenlerindir.
Nur yüzlü cesur şehitlerindir!

O cephe benim bu cephe senin,
Kimdir bizi Hakk yolundan ayıran?
Zümrüdü-anka misali küllerinden doğan,
Ana ben şehit olmak istiyorum, diyenlerindir.
Cesur anaların kahraman evlatlarıdır!

Size haberim var ey güzel anam!
Füzuli'den, Cebrayıl'dan, Laçın'dan,
Kelbecer'den, Ağdam'dan, Hocalı'dan.
Vatanımız uğrunda canından geçenlerden,
Kalbimizde sonsuz yaşayacak şehitlerden!

Şehitler korkusuzca olur alişan.
Düşmanımız olur her zaman perişan.
O Allah ki en güzel vekildir olan
Kendini bu yola adayanların,
Arkaya bakmayan Mübarizlerindir!

Hiç bilmiyorum bu nasıl olmuş?
Sanki yürekten bir nağme kopmuş.
Susuz gibi bir de nağmesiz kalmış.
En güzel türküyü okuyanların,
En güzel sesli Hudayerlerindir!

Ya Rahman! Rahmeyle bu mübarek orduna.
Muzaffer eyle bizi çakallar sofrasında.
Eğdirme başımız zulüm karşısında.
Seni her daim zikredenlerin de,
Zafere Ya Allah! diye giden şehitlerindir!

Günlerce geceleri hiç uyumazlar,
Ne ana ne baba pek düşünmezler
Dilber gözlü sevgiliyi pek özlemezler,
Vatan toprağında aşk ile vuruşunların
Bir mektup bırakan şehitlerindir!

Cihad-ı Ekber de buluştuk bu sabah.
Diyemem bir kez bile nerede refah?!
Hiç pes etme, al eline bir kaç silah!
Mertçe savaşan yiğitlere eyvallah!
Gözüpek göçüp giden şehitlerindir!

Kartal gibi ülkemin muhafızları,
Şehit oldukları yerde çiçek açarlar,
Bir hikaye misali aklımızda kalırlar,
Beş yaşındaki çocuğu etkileyenler,
En güzel şiir olan şehitlerindir!





Bugün gözlerimizi yaşlı bırakan,
Bizlere şüphesiz zafer hissi yaşatan,
Her düşündüğümüzde biz duygulanan,
En güzel yere varanlarındır.
Şehitoğlu, nur yüzlü şehitlerindir!

Geldik bu çağa, destanları dillerimizde,
Asırlar geçse de hep kalplerimizde,
Yüreğine taş basan annelerimizde,
Aldığımız her nefeslerimizde,
Bila-bedel hayat veren şehitlerindir!

Celadet hikayesi hiç bitmeyecek,
Bu ateş, bu heyecan hiç sönmeyecek,
İştiyaklar da kalpte hiç bitmeyecek,
Bu bayrak göklerden hiç inmeyecek!
Unutulmayacak alişan şehitlerindir!

Ali Bağırov
*42-ci yer.*







# Şəhid ömrü

Nakam getdin bu dünyadan,
Torpaq aldı ağuşuna
Cismin yerdə, ruhun hopub
Bu millətin yaddaşına.

Sən yatdığın o torpağı,
Güllər alıb qucağına.
Millət bu gün təzim edir,
Öz pirinə, ocağına

Ölümünlə şərəf verdin,
Sən yurduna, yurddaşına
Son qoyuldu bacıların,
Anaların göz yaşına.
Etiramla baş əyirik
O müqəddəs baş daşına.

Xumar Əliyeva
*43-cü yer.*







## Yaxşıdır

Qarabağ bürünüb gülə, çiçəyə,
Mənzərəsi gülüstandan yaxşıdır,
Turş suyu, İsası, saf bulaqları,
Hər təbibin dərmanından yaxşıdır.

Bu cənnət bənzəri xoş məkanların,
Meşəyə oxşayan yaşıl bağların,
Qarabağla olan xoş arzuların,
Ürəklərdə qalmamağı yaxşıdır.

İgiddir vətənsiz dözməz ki ürək,
Torpaqda öz oğlu yetişsin gərək,
Oğulda səngərdən cəld dikələrək,
Dedi mənə ana vətən yaxşıdır.

Gözü döndü şərə yerin vermədi,
Fərəhləndi qayə, amal dönmədi,
Silahlandı, yar-yasaqsız getmədi,
Bilirdi ki, vətən yardan yaxşıdır.

Çox vuruşdu, könül əsir düşmədi,
Çox yoruldu, daha bəsdir demədi,
Çox üşüdü, vətən soyuq demədi,
Torpağına şəhid düşmək yaxşıdır.

Qaytardı vətəni öz yuvasına,
Bir bax Qarabağın xoş simasına,
Şuşa bürünübdür ağ libasına,
Bu torpağın hər cəfası yaxşıdır.

Qubadlı, Xocalı, Kəlbəcərindən,
Edərək zümzümə oxudu hərdən,
Deyirlər bülbülə yaxşıdır çəmən,
İnsançün laləzar vətən yaxşıdır.

Unutma çırpışan qəhrəmanları,
O səs unutdurmaz ər Xudayarı,
Yenədə dönərək vətənə sarı,
Deyirik ölməyə vətən yaxşıdır.

Oba şadlandı öz elin görəndə,
Ər-igidin, sevdalısın biləndə,
Qara buludlar üstündən keçəndə,
Dayağında bu nəsillər yaxşıdır.

Şad oldu ruhu indi Natəvanın,
Hacıbəy Üzeyrin , Molla Pənahın,
Belə gözəl aşıqların sazının,
Cıdırda yanıqlı səsi yaxşıdır.

Məftun kimi çox xülyadan atlaram,
Qələm ilə söz belini bağlaram,
Hər dinəndə ulduz kimi parlaram,
Vətən bizə asimandan yaxşıdır.

Məftun Ağazadə
*44-cü yer.*







# Ana torpaq, qucağına gəlirəm

Şəhid Xudayarın həzin səsilə,
Xanın Qarabağ şikəstəsilə,
Telli durnaların düz sürbəsilə,
Ana torpaq, qucağına gəlirəm

Səndə keçib ömrün ilki, əzəli,
Dilimdə Vaqifin sevgi qəzəli
Qoy qısqansın məni Şuşa gözəli
Doğma yurdum, ocağına gəlirəm,
Ana torpaq, qucağına gəlirəm

Dərsini verdik biz xain düşmənə,
Dönür övladların qoynuna yenə,
Mən də bir qızınam, qucaq aç mənə
Doğma yurdum, ocağına gəlirəm,
Ana torpaq, qucağına gəlirəm

Aytən Quliyeva
*45-ci yer.*







# Şəhidin qızıyam

Oyan, dünya,oyan bir .
Gör yaram nə dərindir.
Məni hörmətlə dindir,
Bil ki, mən türk soyluyam,
Mən şəhidin qızıyam!

Qorxum yoxdur yağıdan,
Xoşum gəlməz ağıdan.
Mən nər kimi vuruşan
Bir igidin qızıyam,
Mən şəhidin qızıyam!

Bizə öncə vətəndir,
Bayrağımız kəfəndir,
Türk fateh fəth edəndir,
Pozu yox bu yazıya,
Mən şəhidin qızıyam!

Şəfəq Müseyibova
*46-cı yer.*







# Qarabağ azad oldu, daim azad qalacaq!

Qırdı müzəffər ordum düşmənlərin belini,
Sındırıb əl-qolunu, lal elədi dilini.
Göstərdi hər bir kəsə layiqincə yerini.
Düşmənin bağçasında bütün güllər solacaq!
Qarabağ azad oldu,daim azad qalacaq!

Üçrəngli bayrağımız dalğalanır Şuşada,
Bayram əhvalı vardır bütün eldə, obada.
Gərəkdir hər bir şair buna dastan yarada
Azərbaycan hələ çox şanlı tarix yazacaq!
Qarabağ azad oldu,daim azad qalacaq!

Böyük Türk dünyamıza Tanrı özü yar olsun,
Birliyi möhkəm olsun, daim etibar olsun.
Ali Baş K vəomandanım Vətənimdə var olsun
Düşmənimin başına dəmir yumruq salacaq!
Qarabağ azad oldu daim azad qalacaq !

Zəhra Hümbətli
*47-ci yer.*







# Gözəl Şuşa

Gözəl Şuşa sən azadsan deyəndə
Şəhidlərin ölməz ruhu sevindi.
İllər boyu vətən həsrəti çəkmiş
Millətimin ağlar gözü sevindi.

Gözəl Şuşa sən azadsan deyəndə
Xocalımın intiqamı alındı.
Vətənimin qəhraman oğulları
Sevincindən bayrağına sarıldı.

Gözəl şuşa sən azadsan deyəndə
Məscidlərdə azan səsi yüksəldi.
Rəzil oldu rüsvay oldu düşmənlər
Vətənimin torpaqları dirçəldi.

Gözəl şuşa sən azadsan deyəndə
Allahın qüdrətin bir daha gördük.
Dünyaya göstərdik hünərimizi
Türkün cəsarətin bir daha gördük.

Gözəl şuşa sən azadsan deyəndə
Qanadlanıb bir quş olmaq istədim.
Azərbaycanımın enməz bayrağın
Şuşa qalasına sancmaq istədim.

Gözəl Şuşa sən azadsan deyəndə
Azərbaycan igidlərlə fəxr etdi.
Allahımın lütfü mərhəməti ilə
Qələbəni tariximə həkk etdi.

Aydan Əhmədzadə
*48-ci yer.*







# Şəhidim

Öz canını qoydu Vətən yolunda,
Torpağını geri aldı Şəhidim.
Dastanını al qanıyla yazaraq,
Tarixə səs-soraq saldı Şəhidim.

Analara keçmişini gətirdi,
Körpələri gələcəyə yetirdi,
Qarabağda Xarı Bülbül bitirdi,
Çox döyüşdü,zəfər çaldı Şəhidim.

Cismi bu dünyadan köçüb-getsədə,
Qəlbimizdə qəm toxumu bitsədə,
Bu savaş ,nəhayət,sona yetsədə,
On milyon ürəkdə qaldı Şəhidim.

Bizim olanları qaytardı bizə,
Xoş ovqat gətirdi xoş elimizə,
Zəfəri bəxş etdi tariximizə,
Ənginliklərə ucaldı Şəhidim.

Şahin Məmmədov
*49-cu yer.*



Qarabağ Şəhidlərinin Əziz Xatirəsinə



# Azərbaycan Türkiyə

Türkə birlik gərəkdir!
Gündoğandan günbatana,
İzi düşüb hər bir yana.
Neçə - neçə məmləkətlər,
Yaratdığı bu dövlətlər,
Azərbayacan Türkiyə.

Türk dünyamdır, türk elimdir,
Hara getsəm öz evimdir,
Babam türkün övladıyıq,
Öz qanıyıq, öz canıyıq,
Bölünmüşük pərən - pərən,
Hansı gücdür bizi bölən?!
Dilqamışdan üzü bəri,
İgidlikdən hər əsəri,
Həkk etmişdir gilə, daşa,
Fatehləri qoşa - qoşa!
Öndə gəldi Nuru Paşa,
O atıldı haqq - savaşa,
Xilas oldu Azərbaycan.
Qədəm qoydu yeni dövran!
Azərbaycan Türkiyə.

Zaman yenə həmin zaman,
Birliyədir indi güman!
Yumruq olsun ərənlərin,
Qoy xar olsun düşmənlərin.
Darda qoyma qardaşını!





Qarabağın hər daşını,
Azad edək birlikdə biz,
Zəfər çalsın qüdrətimiz!
Düşmən sayıq, yatma, oyan,
Ey türk oğlu möhkəm dayan!

Səhər Orucova
*50-ci yer.*



